AZƏRBAYCAN
XƏZƏR DƏNİZ GƏMİÇİLİYİ

# DƏNİZ

QƏZET 1931-ci ildən nəşr olunur

14 iyul 2017-ci il № 49-52 (9143) www.seanews.az Qiyməti 50 qəpik

## BU SAYIMIZDA


### VAŞİNQTONDA TRANS-XƏZƏR FORUMUNDA AZƏRBAYCANIN VƏ REGİONUN STRATEJİ ƏHƏMİYYƏTİNDƏN BƏHS EDİLİB



*ABŞ-ın paytaxtı Vaşinqtonda 26-27 iyun tarixlərində Trans-Xəzər Şərq-Qərb Ticarət və Tranzit Forumu keçirilib.*

Səh. 3

### İCTİMAİ MƏSLƏHƏTLƏŞMƏLƏR ŞURASI FƏALİYYƏTİNİ GENİŞLƏNDİRİR

*Daim müasir korporativ idarəetmə sisteminin prinsiplərinə əsaslanaraq fəaliyyət göstərən “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” QSC bu istiqamətdə növbəti addım atıb.*




Cəmiyyət sədrinin yanında mövcud olan İctimai Məsləhətləşmələr Şurasının fəaliyyəti təkmilləşdirilir.

Səh. 4

### BAKI LİMANI “BİR KƏMƏR - BİR YOL” BEYNƏLXALQ NƏQLİYYAT LAYİHƏSİNDƏ MÜHÜM YER TUTUR



*Çin Xalq Respublikasının Şenzen şəhər Regional İqtisadi Əməkdaşlıq Assosiasiyasının prezidenti Çen Zhiyonq və iş adamlarından ibarət nümayəndə heyəti Ələt qəsəbəsində yerləşən yeni Bakı Limanına səfər ediblər.*

Səh. 5

### QONŞU ÖLKƏYƏ BEYNƏLXALQ SULARA ÇIXIŞ ÜÇÜN SU KORİDORU VERMƏLİDİR



*Uzun illərdən bəri Sloveniya və Xorvatiya arasında su və quru sərhədlərinin bölüşdürülməsinə dair hüquqi mübahisə ilə bağlı Haaqa Arbitraj Məhkəməsi öz qərarını elan edib.*

Səh. 6

### UŞAQLAR ÜÇÜN XƏZƏR DƏNİZİNDƏ GƏZİNTİ TƏŞKİL OLUNUB



*Yay tətili günlərində uşaqların və yeniyetmələrin zərərli vərdişlərdən uzaqlaşdırılması, istirahət müddətində onların bilik səviyyələrinin artırılmasına kömək göstərilməsi məqsədilə Nəsimi Rayon İcra Hakimiyyətinin (RİH) orta məktəb şagirdləri üçün keçirdiyi silsilə tədbirlər davam edir.*

Səh. 7

### BOKSÇUMUZ PEŞƏKAR RİNQDƏ NÖVBƏTİ QƏLƏBƏSİNİN SEVİNCİNİ YAŞAYIB



*Azərbaycanın və “Qəbələ” idman klubunun boksçusu Zamiq Atakişiyev peşəkar rinqdə növbəti döyüşünü keçirib.*

Səh. 8


# PREZİDENT İLHAM ƏLİYEV 22-Cİ DÜNYA NEFT KONQRESİNDƏ PREZİDENTLƏRİN TƏDBİRİNDƏ İŞTİRAK EDİB

*İstanbulun ev sahibliyi etdiyi 22-ci Dünya Neft Konqresi çərçivəsində iyulun 10-da prezidentlərin tədbiri keçirilib.*



AZƏRTAC-ın xüsusi müxbiri xəbər verir ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev tədbirdə iştirak edib.

Konqres ötən il iyulun 15-də Türkiyədə baş verən hadisələr zamanı həlak olan şəhidlərin xatirəsinin bir dəqiqəlik sükutla yad olunması ilə başladı.

Dünya Neft Şurasının sədri Cozef TOT 1933-cü ildə yaradılan bu qurumun dünya neft sektorunun bütün sahələrini əhatə etdiyini və hər üç ildən bir keçirildiyini bildirdi. Bu dəfə İstanbulda “Enerji gələcəyimizə körpülər” devizi altında təşkil olunan 22-ci Dünya Neft Konqresinə 100-dən çox ölkədən 50 nazirin, 5 mindən çox dövlət nümayəndəsinin və şirkət rəhbərlərinin qatıldığını deyən Cozef Tot Konqres çərçivəsində aparılan müzakirələrin faydalı olacağına əminliyini ifadə etdi.

Türkiyənin enerji və təbii sərvətlər naziri Berat ALBAYRAK Konqresə ev sahibliyi etməyin Türkiyə üçün qürurverici olduğunu deyərək Moskvada keçirilən son Konqresdən sonra bir çox işlərin görüldüyünü, mühüm nəticələrin əldə olunduğunu bildirdi. Son illərdə Türkiyədə neft-qaz sektorunun inkişafı ilə bağlı görülən işlərdən danışan nazir enerji sahəsinə artan tələbatın ödənilməsinin, özəl sektorda yatırımların həcminin artırılmasının, milli enerji siyasətinin təməl prinsiplərinin gücləndirilməsinin diqqət mərkəzində saxlanıldığını vurğuladı. Qarşıda duran vəzifələrdən danışarkən Berat Albayrak boru kəməri layihələrinin genişləndirilməsinin də əhəmiyyətinə toxundu, qlobal enerji layihələrində Türkiyənin hər zaman təbii müttəfiq olacağını bildirərək dedi:



- Bakı-Tbilisi-Ərzurum, TANAP, TAP, “Türk Axını” və Şərqi Aralıq Dənizi qaz layihələri Türkiyənin və Avropanın təbii qazla təchizatı mənbələrinin şaxələnməsi baxımından çox əhəmiyyətlidir. Türkiyə enerji sektoruna yatırılan investisiyaların artırılmasında maraqlıdır.

Sonra müasir dövrdə həyatın və sivilizasiyanın mənbəyi olan enerjinin əhəmiyyətinə həsr olunan videoçarx nümayiş etdirildi.

Bolqarıstanın Baş naziri Boyko BORİSOV çıxışında Balkan regionunda neft-qaz sektoru baxımından önəmli mövqeyə malik olan ölkəsinin gələcəkdə Avropanın təbii qazın paylanması mərkəzinə çevrilmə ehtimalının böyük olduğunu bildirdi və bu məsələdə Balkan regionunun əhəmiyyətindən danışdı. O, Azərbaycandan gələn təbii qazın qəbulu və ötürülməsində də Bolqarıstanın önəmli rol oynadığını diqqətə çatdıraraq bildirdi:

- Avropaya Azərbaycan, Rumıniya və Rusiya ilə yanaşı, Bolqarıstan vasitəsilə də təbii qaz nəql etmək imkanımız olacaq. Bununla bağlı 1 milyard kubmetr qazın nəql edilməsi üçün Azərbaycan ilə müzakirələr aparmışıq. Biz qaz anbarlarımızın daha da inkişaf etdirilməsi ilə bağlı əlimizdən gələni edəcəyik.

Albaniyanın Baş naziri Edi RAMA da neft-qaz sektorunun inkişafı sahəsində ölkəsinin böyük imkanlarının olduğunu, bu baxımdan Balkan regionunda önəmli məntəqəyə çevrildiyini bildirdi. Neft-qaz, ümumiyyətlə, enerji sektorunda Albaniyanın böyük perspektivlərindən danışan Edi Rama Xəzərdən gələn enerjinin 2020-ci ildə Avropaya çatacağını və Albaniyanın da təbii qazın qitəyə ötürülməsində önəmli məntəqə olduğunu dedi, enerji sahəsində fəaliyyət göstərən şirkətləri ölkəsinə sərmayə qoymağa dəvət etdi.

“Dünyada önəmini qoruyub saxlayan enerji sektorunun müasir dövrdə ölkələrin və xalqların mənafeyinə xidmət etməsi vacibdir”, - deyən Türkiyənin Baş naziri Binəli YILDIRIM bu sahədə ölkəsinin həyata keçirdiyi tədbirlərdən danışdı, enerji təhlükəsizliyinin siyasi problemlərinin həllinə, sülhün təmin olunmasına xidmət etməsinin vacibliyini bildirdi. Binəli Yıldırım Türkiyənin Azərbaycan və Gürcüstan ilə birgə həyata keçirdiyi Bakı-Tbilisi-Ceyhan və Bakı-Tbilisi-Ərzurum neft-qaz layihələrinin önəmini vurğulayaraq dedi:

- Regional əməkdaşlığın nə dərəcədə önəmli olduğunu Azərbaycan və Gürcüstanla birgə həyata keçirdiyimiz Bakı-Tbilisi-Ceyhan və Bakı-Tbilisi-Ərzurum neft-qaz kəmərləri layihələri ilə regiona və dünyaya nümayiş etdirdik. Bu əməkdaşlığı hazırda “Cənub Qaz Dəhlizi” layihəsi çərçivəsində həyata keçirdiyimiz Trans-Anadolu qaz boru kəməri (TANAP) layihəsi ilə də davam etdiririk.

TANAP-ın gələn il istifadəyə verilməsi nəticəsində Türkiyə hər il Azərbaycandan əlavə olaraq 6 milyard kubmetr təbii qaz alacaq. Bundan başqa, 2020-ci ildən etibarən bu xətt vasitəsilə Avropaya 10 milyard kubmetr qaz ixracı məsələsi gündəmdə olacaq.

Sonra Türkiyənin dünya enerji xəritəsində oynadığı roldan bəhs edən növbəti videoçarx göstərildi. Videoçarxda Türkiyənin mədəniyyətindən, geosiyasi mövqeyindən, bu ölkənin bölgədə sülhün və təhlükəsizliyin qorunmasındakı rolundan danışıldı. Qədim zamanlarda İpək Yolunun kəsişməsində yerləşən Türkiyənin bu gün enerji kəmərlərinin kəsişdiyi nöqtədə durmasının əhəmiyyəti vurğulandı.

Hazırda enerji təminatının ölkəsinin xarici siyasətində ən önəmli yerlərdən birini tutduğunu deyən Serbiya Prezidenti Aleksandr VUÇİÇ bu məsələ ilə bağlı gələcəyə yönələn tədbirlərdən danışdı, beynəlxalq əməkdaşlığın diqqət mərkəzində saxlandığını bildirdi. Etibarlı enerji tədarükünün Serbiya üçün xüsusi önəm daşıdığını deyən Aleksandr Vuçiç ölkəsinə ixrac olunan mavi yanacağın həcminin artırılması ilə bağlı tədbirlərin görüldüyünü vurğuladı, alternativ enerji mənbələri ilə bağlı həyata keçirilən siyasətin Serbiyanın gündəmində olduğunu diqqətə çatdırdı.

Dövlətimizin başçısı tədbirdə çıxış etdi.

### Azərbaycan Prezidenti İlham Əliyevin çıxışı

- Əziz qardaşım, hörmətli Prezident Rəcəb Tayyib Ərdoğan.

Hörmətli xanımlar və cənablar.

Qardaş Türkiyə torpağında yenidən olmağımdan çox məmnunam. Fürsətdən istifadə edərək, qardaş türk xalqına sülh, rifah, tərəqqi arzulayıram.

Prezident Ərdoğana minnətdaram ki, məni bu Konqresə dəvət etdi. Mənə göstərilən qonaqpərvərliyə görə də minnətdaram.

Türkiyə bu gün dünya miqyasında böyük bir gücdür. Türkiyə dünya gündəliyinin bir çox məsələlərində həlledici sözə malikdir. Bütün bu uğurlar mənim qardaşım Prezident Ərdoğanın liderliyi ilə əldə edilibdir. Bu gün Türkiyə uğurla, sürətlə inkişaf edir. Türkiyə Prezident Ərdoğanın liderliyi ilə çox böyük və şərəfli yol keçmişdir. Bugünkü toplantı bunun təzahürüdür. Türkiyə gücləndikcə biz də güclənirik, biz də sevinirik. Fürsətdən istifadə edərək qardaş türk xalqına bütün Azərbaycan bacı-qardaşlarının səmimi salamlarını çatdırıram.

Türkiyə və Azərbaycan bütün məsələlərdə bir-birinin yanındadır. Bizim əməkdaşlığımız çoxşaxəlidir və bütün sahələri əhatə edir. O cümlədən, enerji sahəsində Türkiyə-Azərbaycan əməkdaşlığı, işbirliyi bir çox önəmli strateji layihələrin icrasına imkan verdi. Onların arasında Bakı-Tbilisi-Ceyhan neft kəmərini, Bakı-Tbilisi-Ərzurum qaz kəmərini və TANAP layihəsini xüsusi qeyd etmək istərdim. Bu layihələr nəinki regionumuzun, dünyanın enerji xəritəsini yenidən tərtib etdi.

Azərbaycan qədim neft diyarıdır. Əslində biz hesab edirik ki, Azərbaycan neftin vətənidir. Çünki dünyada sənaye üsulu ilə ilk dəfə neft 1846-cı ildə məhz Azərbaycanda, Bakıda çıxarılmışdır. Ondan bir əsr sonra - XX əsrin ortalarında yenə də dünyada ilk dəfə olaraq dənizdən neft Xəzər dənizinin Azərbaycan sektorunda Azərbaycan neftçiləri tərəfindən hasil edilmişdir. Lakin o vaxt Azərbaycan müstəqil deyildi və biz təbii sərvətlərimizdən tam istifadə edə bilmirdik. Ancaq müstəqillik dövründə Azərbaycan xalqı öz taleyinin, öz təbii sərvətlərinin sahibi oldu. Müstəqillik dövründə bu təbii sərvətlər ölkəmizin inkişafına, xalqın rifah halının yaxşılaşmasına xidmət etməyə başlamışdır. Müstəqilliyimizin ilk illərində - 1994-cü ildə Azərbaycan ilk dəfə olaraq Xəzər dənizindəki karbohidrogen yataqlarını xarici sərmayədarların üzünə açdı.

*(Ardı 2-ci səhifədə)*

# PREZİDENT İLHAM ƏLİYEV 22-Cİ DÜNYA NEFT KONQRESİNDƏ PREZİDENTLƏRİN TƏDBİRİNDƏ İŞTİRAK EDİB

*(Əvvəli 1-ci səhifədə)*

1994-cü ildən etibarən Azərbaycanın neft sənayesinə böyük sərmayə qoyulmağa başlanmışdır. Eyni zamanda, 1994-cü il ona görə əlamətdar bir tarixdir ki, məhz o ildə "Əsrin kontraktı" imzalanmışdır. Bu kontrakt Bakı-Tbilisi-Ceyhan kəmərinin neftlə doldurulmasında əsas rol oynayır. Ondan sonra Azərbaycanda çox zəngin "Şahdəniz" qaz yatağı aşkar edilmişdir. Bu yatağın qaz ehtiyatlarının həcmi 1,2 trilyon kubmetrdir. Bu, dünya miqyasında ən böyük qaz yataqlarından biridir və bu gün Cənub Qaz Dəhlizinin resurs bazasının əsasını təşkil edir.

Beləliklə, artıq Azərbaycan müasir dövrdə neft və qazı hasil və ixrac edən ölkəyə çevrilmişdir. Bizim ölkəmiz dünya bazarlarına çıxış əldə etmək üçün neft-qaz kəmərləri tikməli idi. Çünki bizim dünya bazarlarına birbaşa çıxışımız yoxdur. Bu məqsədlə 2006-cı ildə Bakı-Tbilisi-Ceyhan neft kəməri və 2007-ci ildə Bakı-Tbilisi-Ərzurum qaz kəməri istismara verilmişdir. Ondan bir neçə il əvvəl Xəzər dənizini Qara dənizlə birləşdirən Bakı-Supsa neft kəməri tikilmişdir. Beləliklə, Azərbaycanın təbii resurslarının dünya bazarlarına çıxarılması üçün kifayət qədər böyük şəbəkə yaradılmışdır. 2006-cı ildə Ceyhanda qardaşım Prezident Ərdoğanla bir yerdə Bakı-Tbilisi-Ceyhan neft kəmərinin açılışında iştirak edirdik və o vaxt da biz gələcək planlar haqqında düşünürdük, fikir mübadiləsi aparırdıq. O vaxtdan bu günə qədər bizim bütün planlarımız uğurla reallaşır. Çünki biz bu gün Cənub Qaz Dəhlizi kimi meqa layihənin üzərində çalışırıq, onun da təməli Türkiyədə, bu gözəl İstanbul şəhərində qoyulmuşdur. 2012-ci ildə qardaşım Prezident Ərdoğanla TANAP layihəsi haqqında müqaviləni imzaladıq. TANAP layihəsi Cənub Qaz Dəhlizinin özəyidir. Məhz ondan sonra bütün digər istiqamətlər üzrə işlər başlamışdır. Bu gün "Cənub Qaz Dəhlizi" layihəsi uğurla icra edilir. Bu layihə 4 hissədən ibarətdir. Birinci hissə "Şahdəniz" qaz yatağıdır, orada "Şahdəniz-2" layihəsinin icrası artıq 93 faizə çatıbdır, yaxın aylarda tam başa çatacaqdır. İkinci hissə Azərbaycanı Gürcüstanla birləşdirən Cənubi Qafqaz qaz boru kəməridir. Orada da işlər 87 faiz səviyyəsində tamamlanmışdır. Üçüncü və ən əsas hissə TANAP qaz kəməridir. Burada da tamamlanma səviyyəsi 77 faizdir və biz gələn il bu layihənin icrasını qeyd edəcəyik. Nəhayət, dördüncü hissə TAP – Trans-Adriatik kəməridir. Burada da icra 44 faiz səviyyəsindədir. Bütün bu dörd önəmli layihə Cənub Qaz Dəhlizini təşkil edir. Bu layihənin icrası üçün 40 milyard dollar sərmayə tələb olunur, onun böyük hissəsi artıq qoyulubdur.

Azərbaycanın təsdiq edilmiş qaz ehtiyatları 2,6 trilyon kubmetrdir. Gələcək onilliklər ərzində Azərbaycan qazı




həm region, həm də Avropa ölkələrinin tələbatını ödəyəcəkdir.

"Cənub Qaz Dəhlizi" layihəsinin icrasında yeddi ölkə iştirak edir: Azərbaycan, Gürcüstan, Türkiyə, Bolqarıstan, Yunanıstan, Albaniya, İtaliya. Üç Balkan ölkəsi də gələcəkdə Cənub Qaz Dəhlizinə qoşula bilər. Bu istiqamətdə də müvafiq işlər aparılır. Yəni, biz bu layihənin coğrafiyasını genişləndiririk, gələcəkdə daha da genişləndirə bilərik. Çünki bu, hər bir ölkəyə fayda gətirən təşəbbüsdür. Bu layihənin icrası onu göstərir ki, burada iştirak edən bütün ölkələr və şirkətlər qazanc əldə edirlər. Biz elə bir gözəl əməkdaşlıq formatı yaratdıq ki, həm hasilatçılar - yəni, Azərbaycan, həm tranzit ölkələr və həm də istehlakçılar burada ortaq maraqlar əsasında çalışırlar. Məhz bu maraqlar balansı bu böyük layihənin uğurlu icrasına gətirib çıxarıb. Çünki burada həm texniki, maliyyə, iqtisadi, siyasi məsələlər kifayət qədər çoxdur. Artıq bu gün demək olar ki, "Cənub Qaz Dəhlizi" layihəsi uğurla icra ediləcək və Azərbaycan bundan sonra uzun illər ərzində həm bölgə, həm də Avropa ölkələrini təbii qazla təmin edəcəkdir.

Bu gün qaz amili dünyada enerji təhlükəsizliyini təmin edən əsas şərtdir. Bu baxımdan Azərbaycan enerji təhlükəsizliyinin təmin edilməsi istiqamətində öz töhfəsini verməkdədir. Eyni zamanda, Azərbaycan qazı Avropaya nəql ediləcək yeganə yeni qaz mənbəyidir. Çünki qalan bütün qaz mənbələri fəaliyyətdədir. Artıq yeni mənbə aşkarlanıbdır. Bu qaz ehtiyatları yeni xətlə Avropa bazarlarına çıxarılacaqdır. Yəni, bizim üstünlüyümüz ondan ibarətdir ki, burada hər iki amil var. Bu da enerji şaxələndirilməsi istiqamətində çox ciddi bir addımdır.

Azərbaycan öz məsuliyyətini dərk edir. Biz yaxşı başa düşürük ki, tərəfdaş ölkələrlə birlikdə icra etdiyimiz layihələr bir çox ölkələrin enerji balanslarını və enerji təhlükəsizliyini təmin edəcək, onlara kömək edəcək. Biz bu məsuliyyəti öz üzərimizə götürərək ümid edirəm ki, yaxşı nəticələr göstəririk.

Bu Konqresdə əlbəttə ki, neft, qaz məsələləri diqqət mərkəzindədir. Mən çıxışımın sonunda bir məsələyə də toxunmaq istəyirəm. Adətən neftlə zəngin olmayan ölkələr düşünürlər ki, kaş bizdə də neft olaydı, biz də bundan istifadə edə biləydik. Amma mən deyə bilərəm ki, neft həm fayda gətirə bilər, həm də problem, başağrısı yarada bilər. Baxır neftdən necə istifadə edirsən. Biz Azərbaycanda çalışırdıq və hesab edirəm buna nail olduq ki, "qara qızıl"ı insan kapitalına çevirək. Biz neftdən əldə edilən gəlirləri, ilk növbədə, çox şəffaf şəkildə qoruyuruq. Azərbaycan Dövlət Neft Fondu dünyada mövcud olan neft fondları arasında ən şəffaf fondlardan biridir və Birləşmiş Millətlər Təşkilatının da mükafatına layiq görülmüşdür. Yəni, birinci şərt budur - tam şəffaflıq. Bizim Neft Fondumuzda yığılan vəsaitlə bağlı məlumatlar mütəmadi qaydada ictimaiyyətə çatdırılır.

İkinci məsələ, neftdən əldə edilən gəlirlərdən düzgün istifadə olunmalıdır. Biz neftdən əldə edilən gəlirləri, ilk növbədə, infrastruktur layihələrinə yönəltdik. Bu gün biz nəinki nefti, qazı, eyni zamanda, son illər ərzində tikdiyimiz onlarla elektrik stansiyasının istehsal etdiyi enerjini də ixrac edirik. Biz sosial infrastruktur layihələrinə böyük vəsait qoyduq - məktəb, xəstəxana tikintisi. Yoxsulluqla çox ciddi mübarizə aparılır. Neft sektoru əslində çox iş yeri yaradan sektor deyil. Amma buna baxmayaraq, biz neftdən əldə olunan gəlirləri digər sektorlara yönəldərək yoxsulluğu, işsizliyi aşağı səviyyəyə sala bildik və bu gün bu, təxminən 5-6 faiz




səviyyəsindədir. Yəni, düzgün siyasət və düzgün atılan addımlar nefti həm faydaya çevirə bilər, həm də bu sərvət ölkələr üçün problem yarada bilər.

Hesab edirəm ki, Azərbaycan təcrübəsi uğurludur. Bizim ölkəmizə xarici sərmayə də böyük həcmdə qoyulur. Öz növbəmizdə, biz də xarici ölkələrə sərmayə qoyuruq. Burada da birinci yerdə qardaş ölkə Türkiyədir. Türkiyənin enerji sektoruna bu günə qədər 10 milyard dollar sərmayə qoyulubdur. Növbəti illərdə bu rəqəm təxminən iki dəfə artacaqdır.

Bir sözlə, əziz dostlar, bu gün biz enerji təhlükəsizliyi deyəndə əlbəttə ki, icra etdiyimiz layihələr yada düşür. Bir daha çıxışımın əvvəlinə qayıtmaq istəyirəm. Türkiyə-Azərbaycan birliyi, dostluğu, qardaşlığı təkcə iki ölkənin mənfəətini, uğurlu gələcəyini müəyyən etmir. Bunun bölgəyə çox böyük təsiri var. Bu, bölgəyə sabitlik, rifah gətirir, yeni iş yerlərinin yaradılmasına xidmət göstərir, təhlükəsizlik tədbirlərini gücləndirir və geniş əməkdaşlığa qapılar açır.

Əziz qardaşım, dəvətə və mənə göstərilən qonaqpərvərliyə görə Sizə bir daha minnətdaram. Konqresin işinə uğurlar arzulayıram. Sağ olun.

x x x

Türkiyənin malik olduğu neft-qaz kəmərləri sistemindən, bu ölkənin enerjidən təhlükəsizlik və sülhün təmin olunması istiqamətində necə yararlanması ilə bağlı videoçarxın nümayişindən sonra Türkiyə Prezidenti Rəcəb Tayyib ƏRDOĞAN çıxış etdi.

İstanbulun bu Konqresə ev sahibliyi etməsindən məmnun olduğunu deyən Türkiyə dövlətinin başçısı müasir dövrdə sülhün və rifahın təməli olan karbohidrogen resurslarının münaqişələrə səbəb olmasından təəssüfləndiyini söylədi, Türkiyənin dünyanın enerji xəritəsində mühüm rol oynadığını, yeni layihələrin də bu mövqeyi gücləndirəcəyini diqqətə çatdırdı.

Bu çərçivədə Rusiya ilə birgə həyata keçirilən "Türk axını" layihəsinin də əhəmiyyətini vurğulayan Rəcəb Tayyib Ərdoğan enerjinin sülh və təhlükəsizlik vasitəsinə çevrilməsi istiqamətində səylərin artırılmasının vacibliyini bildirdi. 2050-ci ilə qədər enerjiyə olan tələbatın bu günlə müqayisədə iki dəfə artacağını deyən Türkiyə Prezidenti dünya enerji siyasətinin hazırda enerji qaynaqlarını şaxələndirməyə yönəldiyini diqqətə çatdırdı.

"Bölgəmizin sülhə və əməkdaşlığa ehtiyacı var", - deyən Rəcəb Tayyib Ərdoğan Körfəz böhranı da daxil olmaqla, Suriya və digər regionlarda baş verən qarşıdurmaların tezliklə həll olunmasının vacibliyini vurğulayaraq Avrasiyada enerji siyasətində mühüm oyunçulardan olan Türkiyənin enerji qaynaqlarının təhlükəsizliyinin təmin olunması, bu sahədə terror təşkilatlarının fəaliyyətinin qarşısının alınması istiqamətində bundan sonra da qərarlı siyasət yürüdəcəyini bəyan edərək dedi:

-Azərbaycan neftinin Aralıq dənizinə çatdırılmasını təmin edən Bakı-Tbilisi-Ceyhan, həmçinin Azərbaycan təbii qazının ölkəmizə və Avropaya nəqlini mümkün edən Bakı-Tbilisi-Ərzurum boru kəmərlərinin inşasını uğurla başa çatdırdıq.

Hazırda Türkiyə üçün yeni layihələr sırasında prioritet bir az əvvəl deyildiyi kimi, Cənub Qaz Dəhlizidir. Cənub Qaz Dəhlizinin əsas hissələrindən biri olan Trans-Anadolu qaz boru kəməri, yəni TANAP vasitəsilə ilkin mərhələdə Türkiyəyə 6 milyard kubmetr, Avropaya isə 10 milyard kubmetr Azərbaycan qazı ixrac olunacaq. TANAP kəmərinin gələn ilin ortalarında fəaliyyətə başlaması ilə Azərbaycanla yanaşı, Xəzər və hətta gələcəkdə Orta Şərq regionundan da ölkəmizə və Avropaya təbii qaz nəqlinin imkanları yaranacaq. TANAP xəttinin davamı olan Trans-Adriatik qaz boru kəməri layihəsinin – TAP-ın da planlaşdırıldığı kimi, inşallah, 2020-ci ildə istismara verilməsi gözlənilir.

Bu məsələdə dostum cənab Prezident İlham Əliyevin, həm də "Cənub Qaz Dəhlizi" layihəsində iştirak edən digər ölkələrin və şirkətlərin rəhbərlərinin tam qətiyyətli mövqeyini məmnuniyyətlə görürük.

x x x

Sonda birgə foto çəkdirildi.

x x x

Qeyd edək ki, Dünya Neft Konqresinin əsas təşkilatçısı olan Dünya Neft Şurası neft və qaz sənayesi üzrə mühüm məsələlərin müzakirə olunduğu və vacib qərarların qəbul edildiyi beynəlxalq platformadır. Bitərəf və qeyri-siyasi qurum olan Dünya Neft Şurası bu sahədə elmi yeniliklərin tətbiqi, texnologiya və informasiya mübadiləsi, dünyanın neft ehtiyatlarından davamlı və hamının rifahına xidmət edəcək şəkildə istifadə olunması istiqamətlərində fəaliyyət göstərir. Yetmiş üzv ölkəni birləşdirən Dünya Neft Şurası dünyada neft-qaz istehsalçıları və istehlakçılarının 96 faizini əhatə edir.

# "DAĞISTAN" GƏMİ-BƏRƏSİNİN "ZIĞ" GƏMİ TƏMİRİ ZAVODUNDA MODERNLƏŞDİRİLMƏSİ DAVAM EDİR

***Bütün işlər Gəmiçiliyin mühəndis-texniki heyətinin hazırladığı yeni layihə əsasında həyata keçirilir. Layihədə gəminin güc qurğularının dəyişdirilməsi və yeni reduktorların quraşdırılması nəzərdə tutulub.***

Hazırda böyük maşın şöbəsində baş mühərriklərin və reduktorların quraşdırılması əməliyyatı gedir. Reduktor baş mühərriklə avar valların arasında yerləşən qurğudur və baş mühərrikin əvəzlənməsi nəticəsində avar vallarla mühərriklərin dövrlər sayında yaranan fərqi tənzimləyir. Yəni, köhnə mühərriklərdən fərqli olaraq, yeni baş mühərriklər 1000 dövr\dəqiqə sürəti ilə fırlanır. Bu sürət isə gəminin layihə sənədlərində nəzərdə tutulmayıb. Yeni quraşdırılan reduktorlar avar valların həmin fırlanma sürətini – 230 dövr/dəqiqəyə salır.

Məlumat üçün bildirək ki, gəmi-bərədə quraşdırılan bu reduktorlar dünyanın aparıcı şirkəti olan "Wartsila"-nın istehsalıdır.

Eyni zamanda "Dağıstan" bərəsinin istifadəetmə müddəti bitmiş iki köməkçi mühərriki "Hyundai" markalı mühərriklərlə əvəzlənib. Əvəz olunan həm baş, həm də 1000 kilovat gücünə malik köməkçi mühərriklər əvvəlkilərlə müqayisədə daha qənaətcil və effektivdir. Bu mühərriklər avadanlığa göstəriləcək texniki xidməti asanlaşdırmaq baxımından da çox sərfəlidir. Köməkçi mühərriklər artıq quraşdırılıb və yoxlanışdan keçirilib.









Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi təzə baş mühərrikləri də Finlandiyadan sifariş edib. "Wartsila" W32 markalı mühərrik dünya gəmiqayırma sahəsində lider brendlərdən hesab olunur. Bir sözlə, həddindən artıq ağır çəkiyə malik köhnə mühərriklərdən fərqli olaraq yeniləri öz funksionallığı ilə seçilir.

Avtomobilləri yükləyib-boşaltmaq üçün gəminin yan tərəfindən əlavə qapının (aparel) da açılması nəzərdə tutulub. Bu isə gəminin istənilən limanda həm arxa, həm də yan qapıdan yük əməliyyatlarının aparılmasına imkan verəcək.

Həmçinin təmir zamanı "Dağıstan" gəmi-bərəsinin bütün idarəetmə sistemləri də dəyişdirilərək daha müasirləri ilə əvəz edilir. Artıq yanacaq yandırma sistemləri əvəzlənməklə buxar qazanı müasirləşdirilir. Bundan başqa, pərlərə nəzarət sistemi, köməkçi burun sükanı, radionaviqasiya və elektrik avadanlıqları da təzələri ilə əvəzlənir. Bərənin bütün köməkçi – yağ, su, balast sistemləri və sair əsaslı təmir olunur.

Sonda gəmi-bərə tərsanəyə qaldırılacaq, onun gövdə və sualtı hissələri də təmir olunub xüsusi boyalarla rənglənəcək.

Görüləcək təmir işləri bərənin yanacaq sərfiyyatını 25-30 faizə qədər azaltmağa imkan verəcək. Yekunda yeni avadanlıqların sərfiyyatını dəqiqləşdirmək məqsədi ilə gəmi sınaqdan keçiriləcək. Təmirdən sonra bərə 14-15 uzellə səfərlərini davam etdirəcək.

Məlumat üçün bildirək ki, yükgötürmə qabiliyyəti 2425 ton olan "Dağıstan" bərəsi 1984-cü ildə istifadəyə verilib. Bərənin avtomobil və vaqon daşımaq üçün 2 göyərtəsi var. Alt göyərtə avtomobil, üst göyərtə isə vaqon daşımaq üçün nəzərdə tutulub.

Xatırladaq ki, Xəzərdə yeganə bərə operatoru olan "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin 13 gəmi-bərəsi Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu üzrə yüklərin daşınmasına xidmət edir.

# VAŞİNQTONDA TRANS-XƏZƏR FORUMUNDA AZƏRBAYCANIN VƏ REGİONUN STRATEJİ ƏHƏMİYYƏTİNDƏN BƏHS EDİLİB




***ABŞ-ın paytaxtı Vaşinqtonda 26-27 iyun tarixlərində Trans-Xəzər Şərq-Qərb Ticarət və Tranzit Forumu keçirilib.***



Forumun əsas məqsədi Trans-Xəzər nəqliyyat dəhlizi dövlətləri – Azərbaycan, Qazaxıstan, Gürcüstan, Türkiyə, Əfqanıstan və Türkmənistan – tərəfindən həyata keçirilən infrastruktur layihələri, mövcud biznes və sərmayə imkanları barədə ABŞ-ın siyasi, akademik və biznes ictimaiyyətinin məlumatlandırılmasıdır. Nüfuzlu Corc Vaşinqton Universitetində keçirilən və bu universitetin Mərkəzi Asiya Proqramı və Xəzər Siyasət Mərkəzinin ev sahibliyi etdiyi forumun ilk günündə 200 nəfərədək ABŞ dövlət qurumları, akademik çevrələr, biznes və siyasi dairələr, diplomatik korpusun nümayəndələri iştirak edib.

Tədbirdə çıxış edən ABŞ Kommersiya katibinin köməkçisinin Avropa üzrə müavini Deyl Taşarski müasir İpək Yolunun vacib komponenti olan Trans-Xəzər dəhlizinə ölkəsinin dəstəyini ifadə edib. O, bu dəhlizin Şərq-Qərb yükdaşımalarının həyata keçirilməsində fundamental rolunu vurğulayıb. Daha sonra Taşarski Trans-Xəzər dəhlizi ölkələrini dəstəkləmək üçün ABŞ Kommersiya Departamentinin proqramlarını sadalayıb. O, cari ilin oktyabrında ABŞ ticarət missiyasının Azərbaycan və Gürcüstana səfər edəcəyini deyib.

Bundan sonra Azərbaycan və forumun digər təşkilatçı dövlətlərinin ABŞ-dakı səfirləri çıxış ediblər. Azərbaycanın ABŞ-dakı səfiri Elin Süleymanov öz çıxışında ölkəmizin müasir İpək Yolunun canlandırılmasına böyük dəstəyinə diqqəti çəkərək, mövcud infrastruktur layihələri və nəqliyyat şirkətləri, o cümlədən Bakı Beynəlxalq Dəniz Ticarət Lİmanı, Beynəlxalq Hava LİmanındakI Bakı Karqo Terminalı, "Silk Way", Azərbaycan Dəmir Yolları, Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin oynadığı xüsusi rolu vurğulayıb. Daha sonra o, Trans-Xəzər dəhlizində yerləşən ölkələrlə sərhəd keçid və gömrük rəsmiləşdirilməsinin sürətləndirilməsinə dair görülən işlər barədə danışıb. Trans-Xəzər dəhlizinin müasir İpək Yolunun mühüm komponentinə çevrilməkdə olduğunu qeyd edən səfir bu nailiyyətin sözügedən dəhliz ölkələrinin birgə fəaliyyəti nəticəsində əldə olunduğunu qeyd edib. Bu dəhlizin inkişafı Azərbaycan və digər dəhliz ölkələrini eyni zamanda biznes, idman və mədəniyyət mərkəzinə də çevrilməsinə yardım etdiyini qeyd edən səfir Süleymanov buna bariz nümunə kimi bu günlərdə Bakıda keçirilən "Forumula 1" yarışını göstərib. Ölkəmizin regional mərkəzə çevrilməsində Azərbaycan prezidenti İlham Əliyevin ardıcıl və məqsədyönlü siyasətini qeyd edən səfir 1998-ci ilin sentyabrında ilk dəfə müasir İpək Yolunun canlandırılmasına həsr olunmuş konfransın Ümummilli lider Heydər Əliyevin təşəbbüsü ilə Bakıda keçirildiyini xatırladıb.

Daha sonra çıxış edən Əfqanıstan, Türkiyə, Gürcüstan, Qazaxıstan və Türkmənistanın ABŞ-dakı diplomatik nümayəndəlik rəhbərləri Trans-Xəzər dəhlizinin üstünlükləri və görülən işlər barədə danışıb, həmçinin bu Forumun ABŞ-ın paytaxtında keçirilməsinin əhəmiyyətini, cəlb olunmuş dövlətlər arasında əməkdaşlığın daha da artırılmasında və bunun ölkələrin iqtisadi inkişafında vacibliyini qeyd ediblər. Forum çərçivəsində Trans-Xəzər dəhlizi ölkələrində biznes və sərmayə imkanları, dəniz, dəmir yolu və hava nəqliyyatının imkanları üzrə təşkil edilən dörd paneldə dövlət və şirkət nümayəndələri mövzu üzrə çıxışlar edib, bu məsələlər ətrafında təfərrüatlı müzakirələr aparıb və iştirakçıların suallarını cavablandırıblar.

Tədbirin sərmayə və ticarət mövzusuna həsr olunmuş ilk panelində çıxış etmiş Tranzit Yükdaşımalar üzrə Koordinasiya Şurasının ofis rəhbəri Elçin Əhmədov Azərbaycanda ticarət, nəqliyyat və tranzit sahəsində dövlət siyasəti barədə danışıb. Yeni kommersiya və sərmayə imkanları barədə növbəti paneldə çıxış etmiş Bakı Beynəlxalq Dəniz Ticarət LİmanInın nümayəndəsi Tural Əliyev liman sahəsində görülən işlər, azad ticarət zonasının yaradılması və onun regionda nəqliyyat-logistika qovşağına çevrilməsi istiqamətində oynayacağı roldan bəhs edib. Eyni paneldə çıxış etmiş Dövlət Neft Şirkətinin rəsmisi Vitaliy Bəylərbəyov Azərbaycanın enerji siyasəti, enerji dəhlizləri, bu şirkətin regionda gördüyü işlər, mövcud və tikilməkdə olan neft və qaz layihələri barədə məlumat verib.

Trans-Xəzər dəhlizi üzrə yükdaşımaların üstünlüklərindən bəhs edən üçüncü paneldə məruzə etmiş "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin Strateji inkişaf və investisiya layihələri departamentinin rəisi Tariyel Mirzəyev təmsil etdiyi şirkətin Trans-Xəzər dəhlizindəki rolu, bu dəhliz üzrə daşımaların artırılması imkanları, marşrut boyu "vahid pəncərə" sisteminin tətbiqi, regional tərəfdaşlığın gücləndirilməsi, bölgədə həyata keçirilən infrastruktur layihələri barədə məlumat verib. Departament rəisi Gəmiçiliyin donanması, Xəzərdə onun əhəmiyyəti, Şərq-Qərb daşımalarında Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin bərə donanmasının mühüm rolundan danışıb. Forum iştirakçılarına Gəmiçiliyin sifarişi ilə Bakı Gəmiqayırma Zavodunda tikiləcək 2 yeni "Ro-Pax" tipli unikal gəmi-bərə haqqında ətraflı məlumat verib.

Gəmiçilik rəsmisinin təqdimatında Transxəzər Beynəlxalq Nəqliyyat Marşrutu üzrə daşınan konteynerlər, onların həcmi və proqnozlaşdırılan yük artımına da xüsusi diqqət yetirilib.

Kombinə edilmiş tranzit və hava nəqliyyatı sahəsində imkanlara həsr olunmuş sonuncu paneldə "Azərpoçt"un nümayəndəsi Hacı Hacıyev və "Silk Way" şirkətinin ABŞ-dakı nümayəndəsi Ceyms Ekklestoun çıxış ediblər. H.Hacıyev regionda artan elektron kommersiya daşımalarında Azərbaycanın əhəmiyyəti barədə məlumat verib.

Forumun ilk günü Trans-Xəzər dəhlizinin üstünlükləri iştirakçıların diqqətinə çatdırılıb. Bu sırada digərləri ilə müqayisədə bu dəhlizin daha qısa olması və gələcəkdə Çindən Avropaya daşımaların 15-20 gün ərzində çatdırıla bilməsi potensialı, bunun bir çox tez xarab olan yüklərin daşınması üçün ən optimal seçim olması, dəhliz boyu sabitlik və təhlükəsizliyin hökm sürməsi, dəhliz dövlətləri arasında sıx əməkdaşlıq və bu ölkələr arasında artan ticarət, müasir standartlara cavab verən infrastruktur və azad ticari zonaların mövcudluğu, "vahid pəncərə sistemi"-nin tətbiqi və daha da müasirləşməkdə olan sərhəd-keçid və gömrük rəsmiləşdirməsi prosedurları və s. qeyd edilib.

Xatırladaq ki, Azərbaycanın təşəbbüsü ilə ərsəyə gəlmiş Trans-Xəzər Forumu 2016-cı ildən illik əsaslarda Vaşinqtonda keçirilməyə başlayıb. Forum çərçivəsində illik tədbirlərlə yanaşı, müntəzəm əsaslarda ABŞ-ın siyasi, biznes və akademik dairələri ilə təmasların saxlanması, onları dəhliz ölkələrində görülən işlər barədə məlumatlandırılması həyata keçirilir.

# "HUAWEİ" ŞİRKƏTİ BAKI LİMANI İLƏ ƏMƏKDAŞLIĞA DƏVƏT OLUNUB

***"Huawei" şirkəti Bakı Limanı ilə əməkdaşlığa dəvət olunub.***



İqtisadiyyat naziri Şahin Mustafayevin iyulun 7-də Çinin "Huawei" şirkətinin Mərkəzi Asiya və Qafqaz regionu üzrə vitse-prezidenti Hou Tao ilə keçirdiyi görüşdə İKT sahəsində əməkdaşlıq imkanları müzakirə edilib.

Nazirliyin mətbuat xidmətindən bildirilib ki, nazir Şahin Mustafayev Azərbaycan və Çin arasında iqtisadi əlaqələrin genişləndiyini, qarşılıqlı səfərlərin və keçirilən görüşlərin əməkdaşlığın inkişafında rolunu vurğulayıb. Qeyd edilib ki, qeyri-neft sektorunun, o cümlədən İKT-nin inkişafı Azərbaycan iqtisadiyyatının prioritet istiqamətlərindəndir və indiyədək bu sahədə bir sıra işlər görülüb. Azərbaycan İKT sahəsində dünyanın tanınmış şirkətləri ilə əməkdaşlıqda maraqlıdır. Bu ilin may ayında Çində keçirilən "Bir kəmər - bir yol" iqtisadi inkişaf strategiyası üzrə keçirilən Yüksək Səviyyəli Beynəlxalq Forum çərçivəsində Azərbaycan və Çin arasında digər sahələrlə yanaşı, İKT sahəsində əməkdaşlıq imkanları da müzakirə edilib. Bu baxımdan dünyada aparıcı şirkətlərdən olan "Huawei" ilə korporativ sahədə, rəqəmsal iqtisadiyyat və s. kimi istiqamətlər üzrə əməkdaşlıq edilə bilər. "Huawei" şirkətinin Naxçıvanda fiziki cəhətdən qüsurlu insanlara "elektron təhsil" sistemi hədiyyə etməsini yüksək qiymətləndirib, Bakı Ələt Ticarət Limanında görülmüş işlər barədə məlumat verərək, şirkəti burada yaradılmış əlverişli vergi və gömrük rejimindən yararlanmaqla əməkdaşlığa dəvət edib.

"Huawei" şirkətinin fəaliyyəti barədə məlumat verən Hou Tao İKT sahəsində dünyada tanınmış şirkətlərdən olan şirkətin 170-dən çox ölkədə, o cümlədən 2001-ci ildən Azərbaycanda fəaliyyət göstərdiyini, "Huawei" şirkətinin ölkəmizdə fəaliyyətini daha da genişləndirməkdə maraqlı olduğunu bildirib.

# ZƏMANƏT MƏKTUBU VERİLƏN TƏLƏBƏLƏRƏ GƏMİÇİLİYİN QAPILARI AÇIQDIR






***Azərbaycan Dövlət Dəniz Akademiyasının 21 tələbəsinə zəmanət məktubu təqdim edilib. Bu məktublar hesabına həmin tələbələr gələcəkdə "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-də işlə təmin olunacaqlar.***

Zəmanət məktubunun verilməsi ilə bağlı təşkil olunan tədbirdə Akademiyanın rəhbərliyi, müəllim və tələbə heyəti ilə yanaşı, "AXDG" QSC sədrinin köməkçisi Muxtar Axundov, İnsan resurslarının idarəedilməsi departamentinin rəisi Sevda Məmmədova da iştirak ediblər.

Tədbirdə çıxış edən rektor Çingiz Əliyev bildirib ki, "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin sədri Rauf Vəliyev savadlı və peşəkar gənclərə hər zaman dəstək verir. Onun sözlərinə görə, qurum gənc dənizçilərin beynəlxalq standartlara cavab verən bilik və bacarıqlara yiyələnmələri üçün bir çox layihələr həyata keçirir. Hər il Akademiyanın iki tələbəsi və ya məzunu AXDG-nin vəsaiti hesabına dünyanın nüfuzlu dənizçilik təhsil ocaqlarına göndərilir. Tələbələrin peşəkarlığının artırılması məqsədi ilə onların xarici sularda üzən gəmilərdə təcrübə keçmələrinə imkan yaradılır.

Buraxılış imtahanlarından və müsahibələrdən uğurla keçən məzunlara Gəmiçilikdə çalışmaları üçün zəmanət məktublarının verilməsi də belə tədbirlərdəndir.

Daha sonra çıxış edən sədrin köməkçisi, uzaq səfərlər kapitanı Muxtar Axundov məzunlara tövsiyələrini verib. Onlara gələcək karyeralarında uğurlar arzulayıb.

"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin İnsan resurslarının idarəedilməsi departamentinin rəisi Sevda Məmmədova zəmanət məktubu alan məzunları təbrik edərək, göstərilən etimadı doğruldacaqlarına inamını ifadə edib. O bildirib ki, Gəmiçilikdə peşəkar və savadlı kapitan, kapitan köməkçiləri və mexaniklərə hər zaman ehtiyac var.

Sevda Məmmədova onu da vurğulayıb ki, zəmanət məktubu alan məzunlara gələcəkdə xarici sularda istismar edilən gəmilərdə işləmək imkanı yaradılması da mümkündür.

Onu da deyək ki, "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC bu layihəni iki ildir həyata keçirir. Keçən il bu fürsətdən ADDA-nın 11 məzunu yararlanıb.

# ƏLLİ İLDƏ DƏNİZİN HƏR ÜZÜNÜ GÖRƏN KAPİTAN

***25 iyun – "Dənizçi günü" münasibətilə ölkə Prezidenti İlham Əliyevin Sərəncamları ilə bir qrup dənizçi vətənin yüksək mükafatları ilə təltif edilib. Əməyi yüksək qiymətləndirilənlərin arasında qocaman dənizçi Məmməd Məmmədov da var. Ömrünün əlli ilini dənizdə keçirmiş uzaq səfərlər kapitanı Azərbaycan Respublikası Prezidentinin fərdi təqaüdünə layiq görülüb. Məmməd müəllim "seanews.az"-ın əməkdaşı ilə təəssüratını bölüşüb.***

**- Məmməd müəllim, öncə sizi təbrik edirik...**

- Çox sağ olun. Bu təqaüdə görə möhtərəm prezidentimizə və "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin rəhbərliyinə dərin minnətdarlığımı bildirirəm. Onu da deyim ki, bu, təkcə mənim deyil, bütün dənizçilərin əməyinə verilən yüksək qiymətdir. Bəli, indi ölkədə dənizçilərə xüsusi qayğı var. Bu da təsadüfi deyil. Çünki, dənizçilər ölkənin iqtisadi qüdrətinin artırılmasında mühüm rol oynayırlar.



**- Məmməd müəllim, istərdim ötənlərə kiçik bir nəzər salaq.**

- Yarım əsr dənizçi kimi işləmişəm. Bakı Dəniz Yolları Məktəbini bitirdikdən sonra Xəzər Dəniz Gəmiçiliyinin gəmilərində əvvəlcə kapitanın üçüncü, sonra ikincü, daha sonra baş köməkçisi və nəhayət kapitan kimi çalışmışam. 1994-cü ildə xəstəliyimlə əlaqədar təlimatçı kapitan vəzifəsinə keçdim. Bir müddət Azərbaycan Dövlət Dəniz Akademiyasında müəllim işlədim. Deyə bilərəm ki, bir dənizçi kimi dənizin hər üzünü görmüşəm. Və dənizçi olmağımla hər zaman qürur duymuşam.

**- Qocaman dənizçi kimi Azərbaycan dənizçiliyinin bu gününü və gələcəyini necə dəyərləndirirsiniz?**

- Azərbaycanda zəngin dənizçilik ənənələri mövcuddur. Bu sahənin inkişafında Ümummilli lider Heydər Əliyev və Azərbaycan Prezidenti İlham Əliyevin xüsusi rolu var. Hər ikisinin gəmiçiliyin inkişafında xidmətləri əvəzsizdir. Tam əminliklə deyə bilərəm ki, bu gün bizim dənizçilər dünyanın ən qabaqcıl ölkələrindəki həmkarları ilə rəqabət aparmaq gücündədirlər. Onu da deyim ki, indi Gəmiçilik çox inkişaf edib. Burda işləmək üçün hər cür şərait var. Hərdən deyirəm, kaş cavan olaydım.

**- Siz də qeyd etdiniz ki, Azərbaycanda dənizçiliyin və gəmiçiliyin inkişafında Ulu Öndər Heydər Əliyevin xüsusi rolu olub. Bildiyim qədəri ilə, uzaq səfərlər kapitanlığına Ulu Öndərin xeyir-duası ilə başlamısınız. Necə xatırlayırsınız?**

- Bəli, o vaxt biz təsdiq üçün Moskvaya getməmişdən öncə Mərkəzi Komitənin bürosundan keçirdik. Yaxşı xatırlayıram, çox həyəcanlı idim. Ulu Öndər mənə suallar verdi, ailəmlə, işimlə maraqlandı...

Bu görüşümüzdən 10 il keçmişdi. Dübəndi terminalının açılışında biz yenidən qarşılaşdıq. Daha doğrusu, Ulu Öndər açılışdan sonra mənə yaxınlaşdı. "Kapitan Məmmədov, vəziyyət necədir?"- deyə soruşdu. Təsəvvür edirsiniz, 10 il sonra o məni tanıdı. Doğrudan da çox böyük yaddaşı var idi.

**- Gənclərə tövsiyəniz?**

- Həyatı hədər yaşamamağa çalışmışam və düşünürəm ki, buna az da olsa nail olmuşam. İstər istehsalatda, istərsə də həyatda zəhmət, peşəkarlıq və insanlara yaxşılıq etmək əsas hədəfim olub. Gənclərə də bunları tövsiyə edərdim. Gələcəyin dənizçiləri fəaliyyətə başlayanda inamlı olsunlar. Öz üzərlərində çox çalışsınlar. Çünki, bu sahədə əgər bacarığın varsa, qabağa gedə biləcəksən.

*Rövşən Abdurəhmanov*

## DOKER-MEXANİZATORLAR ÜÇÜN TƏLİM TƏŞKİL OLUNUB



***"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin "Zığ" Quru Yük Limanında doker-mexanizatorlar üçün təlim keçirilib.***

Təlimdə kran əməliyyatları zamanı beynəlxalq təcrübə və standartlar barədə danışılıb, texniki təhlükəsizlik qaydaları izah olunub. Məqsəd doker-mexanizatorların peşə mədəniyyətini yüksəltmək və baş verə biləcək qəzaların sayını minimuma endirməkdən ibarətdir.

Təlim 3 gün davam edib. Sonda iştirakçılar imtahan veriblər. Nəticələrə əsasən "Zığ" Quru Yük Limanına sertifikat təqdim olunub.

Qeyd edək ki, seminar beynəlxalq sertifikatlara malik təlimçi Cavad Məmmədov tərəfindən keçirilib. Müvafiq təlimlər gələcəkdə də təşkil olunacaq.

# İCTİMAİ MƏSLƏHƏTLƏŞMƏLƏR ŞURASI FƏALİYYƏTİNİ GENİŞLƏNDİRİR

***Daim müasir korporativ idarəetmə sisteminin prinsiplərinə əsaslanaraq fəaliyyət göstərən "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC bu istiqamətdə növbəti addım atıb.***




Cəmiyyət sədrinin yanında mövcud olan İctimai Məsləhətləşmələr Şurasının fəaliyyəti təkmilləşdirilir. Belə ki, sözügedən şuranın funksiyası genişləndirilir, tərkibinə vətəndaş cəmiyyəti institutlarının nümayəndələri daxil edilir.

Əsas məqsəd "AXDG" QSC-nin ölkə iqtisadiyyatına və ictimai həyatına təsirini, Gəmiçiliyin davamlı inkişafına yönəlmiş layihələr, tədbirlər, əldə olunmuş iqtisadi və əməliyyat nəticələrini, yeni təşəbbüsləri müzakirə etmək, inkişaf üçün məsləhət və təkliflər vermək, Gəmiçilikdə çalışanların, xüsusilə dənizçilərin üzləşdiyi çətinliklərin optimal həlli yollarını araşdırmaq, habelə "AXDG" QSC-nin qəbul etdiyi qərarlarda ictimaiyyətin və Gəmiçiliyin işçilərinin, o cümlədən dənizçilərin iştirakını təmin etməkdən ibarətdir.

Şurada Gəmiçilikdə çalışan işçilərin maddi-sosial vəziyyəti və iş şəraiti, Gəmiçiliyin fəaliyyəti üçün vacib digər məsələlər də müzakirə olunacaq.

İctimai Məsləhətləşmələr Şurası səlahiyyətləri çərçivəsində Gəmiçiliyin İdarə Heyətinə tövsiyələr verəcək.

Əsasnaməyə əsasən İctimai Məsləhətləşmələr Şurasının tərkibi ölkədə fəaliyyət göstərən vətəndaş cəmiyyəti institutları, o cümlədən Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar), Kütləvi informasiya vasitələri, Həmkarlar ittifaqları, Vətəndaşların təşəbbüs qrupları nümayəndələrindən, beynəlxalq ekspertlər və məsləhətçilər, eləcə də xüsusi bacarıq və təcrübələri ilə fərqlənən, nümunəvi davranışı ilə seçilən Gəmiçilikdə çalışmış və ya çalışan dənizçilərdən formalaşır.

İctimai Məsləhətləşmələr Şurasının Əsasnaməsində iclaslarda iştirak edəcək şəxslərin hüquq və vəzifələri də yer alıb.

Qeyd edək ki, sədrin yanında İctimai Məsləhətləşmələr Şurası dənizçilərin Gəmiçiliyin həyata keçirdiyi layihələrdə və verdiyi qərarlarda iştiraklarının təmini məqsədilə 27 iyul 2015-ci il tarixli əmr ilə yaradılıb.

## AZƏRBAYCAN İLƏ QAZAXISTAN ARASINDA YÜKDAŞIMALARININ HƏCMİ 1046,3 MİN TON TƏŞKİL EDİB




***"НК "Қазақстан темір жолы" SC-nin saytı xəbər verir ki, 2017-ci ilin yanvar-iyun aylarında Qazaxıstanla Azərbaycan arasında yükdaşımalarının həcmi 1046,3 min ton təşkil edib ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 164 faiz çoxdur. Artım Qazaxıstanın neft məhsullarının Azərbaycan ərazisi ilə ixrac daşımaları hesabına əldə olunub.***

İdxal daşımaları əsasən ət və ət məhsulları, kimyəvi maddələr, soda, qənnadı məmulatı kimi yüklər hesabına 100,5 min ton artıb.

Tranzit daşımaları iki dəfə - 9,8 min ton çoxalıb. Bu da Braziliyadan Özbəkistana şəkər, Ukraynadan Özbəkistana ərzaq malları daşımalarının artması ilə bağlıdır.

# GƏMİÇİLİK "ŞAHDƏNİZ MƏRHƏLƏ 2" LAYİHƏSİNİN İCRASI İLƏ BAĞLI "SAİPEM" ŞİRKƏTİNİN SİFARİŞİNİ TAMAMLAYIB

***"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC "Şahdəniz Mərhələ 2" layihəsinin icrası ilə bağlı "Saipem" şirkətinin sifarişinə uyğun olaraq Bakı Dərin Özüllər Zavoduna gələn və "ATA yard"ın ( Amec-Tekfen-Azfen) ərazisindəki kanalların dərinləşdirilməsi işini uğurla başa çatdırıb.***









Layihənin birinci mərhələsində Bakı Dərin Özüllər Zavodundan platformanın ayaqları çıxarılıb. Bu məqsədlə uzunluğu 349 metr, eni 95 metr olan ərazi qazılaraq dərinləşdirilib. Burdan çıxarılan süxurun həcmi 23300 kubmetr olub.

İkinci mərhələdə "SDB-QU" qurğu dayağı Bakı Dərin Özüllər Zavodu ərazisindən çıxarılıb, "SDB-PR" (istehsalat modulu) və "SDB-QU" (yaşayış modulu) modullarının konstruksiya olunduğu "ATA yard"ın (Amec-Tekfen-Azfen) ərazisindən çıxarılması işlərinə başlanılıb. Bunun üçün əvvəlcə kanallar qazılıb və platforma AXDG-nin "STB1" barjına yüklənərək təyinat yerinə aparılacaq. "ATA yard" akvatoriyasından indiyədək 284555 kubmetr həcmində süxur çıxarılıb.

Dibdərinləşdirmə layihəsinin icrasına bir torpaqqazan ("Mühəndis Balarza Məmmədov"), bir lövbəratan ("Abşeronskaya-6"), üç torpaqdaşıyan ("Bakinskaya 3", "Bakinskaya 5", "Bakinskaya 6") və bir sərnişin ("İlham Allahverdiyev") gəmisi olmaqla, ümumilikdə altı gəmi cəlb olunub. Bunlardan "Bakinskaya 6" gəmisi sonradan "AXDG" QSC rəhbərliyinin tapşırığı ilə layihənin icrasını sürətləndirmək məqsədilə alınıb.

Eyni zamanda, işlərin düzgün həyata keçirilməsi, dərinliyin dəqiq təyin olunması, iş həcminin müəyyənləşdirilməsi üçün prosesə "Orion 12" tipli gəmi də cəlb olunub. Həmin gəminin üzərində müasir dibölçmə avadanlığı quraşdırılıb.

Qeyd olunan gəmilərin Bakı Dərin Özüllər Zavodunun akvatoriyasında kanala mobilizasiyası 2016-cı ilin dekabrında tamamlanıb və dibdərinləşdirmə işlərinə başlanılıb. Həmin işlər 2017-ci ilin yanvarında yekunlaşdırılıb və gəmilər növbəti əraziyə mobilizasiya olunub. "ATA yard"ın akvatoriyasında dibdərinləşdirmə işləri 2017-ci ilin yanvarında başlayıb və işlər iyun ayında sona çatıb.

Ən əsası 130-dan çox (120-si dənizçi olmaqla) canlı qüvvənin cəlb olunduğu iş xəsarətsiz başa çatdırılıb. Hər hansı kiçik də olsa xoşagəlməz hal baş verməyib.

İş icraçılarının sözlərinə görə, layihəyə hazırlıq elə də asan olmayıb. İcraya başlamazdan əvvəl 12 adda (40 vərəqdən ibarət) prosedur tərtib edilib və müştəri tərəfindən təsdiqlənib. Həmin prosedurlara SƏTƏM, SƏTƏM üzrə interfeys, qəza hallarına cavab tədbirləri, layihə planı, layihəyə hazırlıq və mobilizasiya, dibdərinləşdirmə və süxurların basdırılması, dəniz dibi dərinlik ölçmə, açıq dənizdə lövbər əməliyyatları, körpü yaxınlığında lövbər əməliyyatları, sahil diræklərinə bərkitmə üçün Metodologiya, keyfiyyət planı, keyfiyyətə nəzarət prosedura daxildir.

Xatırladaq ki, layihə ölkəyə xarici valyuta gətirmək baxımından olduqca əhəmiyyətlidir. Digər tərəfdən bu əməkdaşlıq təcrübə qazanmaq üçün də vacib sayılır.

Qeyd edək ki, "Şahdəniz Mərhələ 2" və ya Yatağın tammiqyaslı işlənməsi Azərbaycan qazını Avropaya və Türkiyəyə çatdıracaq nəhəng layihədir. Bu layihə yeni "Cənub Qaz Dəhlizi" ilə Avropa bazarlarına qaz təchizatını və enerji təhlükəsizliyini artıracaq. Layihə nəticəsində "Şahdəniz Mərhələ 1"dən hazırda hasil olunan illik 9 milyard kubmetr qazdan əlavə 16 milyard kubmetr qazın hasil ediləcəyi gözlənilir.

## İKİ KAPİTAN KÖRPÜSÜNDƏN İDARƏ OLUNAN AVİADAŞIYICI GƏMİ İLK DƏFƏ DƏNİZƏ ÇIXIB

***Böyük Britaniyanın ən böyük "Queen Elizabeth" aviadaşıyıcı gəmisi ilk dəfə dənizə çıxıb.***



Gəmi Böyük Britaniyanın Hərbi Dəniz Qüvvələrinə təhvil veriləcək.

Gəminin üzərinə "F35 B" tipli qırıcılar və "Merlin HM2" tipli helikopterlər eniş edə bilir. Assimetrik təhlükəyə cavab vermək üçün gəmidə 30 millimetrlik pulemyotlar quraşdırılıb.

Tikintisi 3,1 milyard funt-sterlinqə başa gələn gəmi ordunun ixtiyarına verilənədək müxtəlif hərbi-dəniz təlimlərində iştirak edəcək. Müasir gəmi Şərqi Şotlandiyanın "Rosyth" gəmiqayırma zavodunda tikilib. 280 metr uzunluğu olan gəmi 8 ilə inşa edilib. Heyəti 1200 nəfərdən ibarət gəminin maksimal sürəti 25 uzeldir.

"Queen Elizabeth" iki kapitan körpüsündən idarə olunur. Onlardan biri gəmiyə, digəri isə uçuşlara nəzarət edir. Böyük Britaniyanın Müdafiə Nazirliyinin qərarı ilə gəmidə nüvə başlıqlı raketlər quraşdırılmayıb. "Queen Elizabeth"in baş və köməkçi mühərrikləri "Rolls-Royce" şirkəti tərəfindən istehsal olunub.

## GƏMİ SAHİBLƏRİ DƏNİZ QULDURLARI İLƏ BAĞLI VƏZİYYƏTDƏN NARAHATDIRLAR



***"Qvineya körfəzində dəniz quldurlarının gəmilərə hücum faktları çoxalıb". Bu fakt Avropa Şurasının dəniz təhlükəsizliyi ilə bağlı hesabatında yer alıb.***

Sənəddə qeyd olunur ki, dəniz nəqliyyatının təhlükəsizliyinin təmin olunması üçün dünya okeanına çıxışı olan ölkələr güclərini səfərbər edib piratlara qarşı birgə mübarizə aparmalıdırlar.

Hesabata əsasən təkcə 2017-ci ildə dəniz quldurları tərəfindən 33 gəmi qaçırılıb, 27 dənizçi isə əsir götürülüb.

Ekspertlərin fikrincə, dəniz terrorunun artımı fonunda daha qətiyyətli addımlar atmaq lazımdır.

"Qvineya körfəzi və digər sularda baş verən quldur özbaşınalıqları ümumilikdə gəmiçilik sahəsinə ciddi ziyan vurur. Bu, nəqliyyat dəhlizlərinə də mənfi təsir göstərir və nəticədə dənizlə yükdaşımaların həcmi azalır",- deyə Avropa Gəmiçilik Assosiasiyasının baş katibi Patrik Verhoven bildirib.

Təşkilat ilk növbədə sahil mühafizə xidmətlərinin gücləndirilməsini, müvafiq hüquqi bazanın yaradılmasını təklif edir.

# ÜZƏN EMALATXANA BAKI BEYNƏLXALQ DƏNİZ TİCARƏT LİMANINA APARILIB

***"Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-yə məxsus üzən emalatxana təmirdən çıxıb. Artıq emalatxana yedək gəmisi ilə Ələtə - Bakı Beynəlxalq Dəniz Ticarət Limanına aparılıb.***





Emalatxana Xəzərin ən böyük yükaşırma müəssisəsinə yan alacaq gəmilərə operativ xidmət göstərəcək. Bununla da gəmilərin səfərlərarası cari təmirində vaxt itkisi aradan qaldırılacaq. Başqa sözlə, əvvəllər gəmilərin "Bibiheybət" və "Zığ" gəmi təmiri zavodlarında həyata keçirilən təmiri bundan sonra yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanında gerçəkləşdiriləcək.

Müasir standartlara cavab verən üzən emalatxanada gəmilərin təmiri ilə bağlı bütün xidmətlər göstəriləcək. Burada işçi heyətin yaşayışı üçün də zəruri hər şey nəzərə alınıb. Kayutlar, yeməkxana, istirahət otağı ilə yanaşı, üzən qurğuda "AXDG" QSC-nin internet və lazımı avadanlıqlarla təchiz edilən stasionar ofisi də fəaliyyət göstərir. Bu da Gəmiçilik əməkdaşlarının Bakı Beynəlxalq Dəniz Ticarət Limanında distant fəaliyyət göstərməsinə və işin səmərəliyini daha da artırmağa imkan verir.

Üzən emalatxana "Bibiheybət" Gəmi Təmiri Zavodunda təmir edilib. Təmir müddətində emalatxananın sualtı və suüstü hissələri, üst tikililəri təmizlənərək rənglənib, dam örtüyü, gövdədə olan qoruyucu tirlər yenilənib, istehsalat sahələrindəki bütün dəzgahlar təmir olunub, istilik və şirin su sistemləri dəyişdirilib.

Bundan başqa, üzən emalatxanada hər biri 17 kubmetr həcmə malik su və fekal çənlər, 20 yerlik telefon stansiyası quraşdırılıb, sanitariya sistemi yenisi ilə əvəz edilib. Bütün sahələrdə təmizləmə və rəngləmə işləri görülüb.









# YENİ AZƏRBAYCAN PARTİYASI SƏBAİL RAYON TƏŞKİLATININ İDARƏ HEYƏTİNİN NÖVBƏTİ İCLASI KEÇİRİLİB



***İyulun 4-də Yeni Azərbaycan Partiyası (YAP) Səbail rayon təşkilatının idarə heyətinin növbəti iclası keçirilib.***

YAP Səbail rayon təşkilatının sədri, Milli Məclisin deputatı, professor Şəmsəddin Hacıyev son bir ayda respublikamızın, eləcə də YAP-ın, o cümlədən rayon partiya təşkilatının ictimai-siyasi həyatında baş verən hadisələrdən danışıb.

Ötən iclasdan keçən müddət ərzində YAP Səbail rayon təşkilatının gördüyü işlər haqqında ətraflı məlumat verən Ş.Hacıyev bildirib ki, iyun ayı ərzində Milli Qurtuluş Günü ilə bağlı çoxsaylı tədbirlər keçirilib, rayon təşkilatı nəzdində yeni ərazi ilk partiya təşkilatları təsis olunub. Mübarək Ramazan bayramı münasibətilə rayonun aztəminatlı sakinləri üçün bir neçə xeyriyyə aksiyası keçirilib və ciddi ehtiyacı olan, hərəkət etməkdə çətinlik çəkən yeddi nəfər aztəminatlı rayon sakininə əlil arabaları hədiyyə olunub. Məktəblilərin respublikamızın ali qanunvericilik orqanının fəaliyyəti ilə tanış olması üçün Milli Məclisə bir neçə ekskursiya təşkil edilib.

YAP Səbail rayon təşkilatının sədri ilin əvvəlindən 900-ə yaxın yeni üzvün partiya sıralarına daxil olduğunu və idarə heyətinin üzvlərinin bu müddətdə mətbuatda aktual məsələlər barədə çoxsaylı çıxışlarının, məqalə və müsahibələrinin dərc edilməsini xüsusi vurğulayıb.

Sonra gündəlikdə duran məsələlər müzakirə edilib.

"Bibi-Heybət" (50 saylı orta məktəb) ərazi ilk partiya təşkilatının sədri Sədaqət Həsənova, "Müharibə veteranları" (Azərbaycan Vətən Müharibəsi Veteranları Birliyinin Səbail rayon şöbəsi) ərazi ilk partiya təşkilatının sədri İlham Əliyev və "Əmək normaçıları" (SOCAR-ın Əmək Şəraiti Normalarının İşlənməsi İdarəsinin baş ofisi) ərazi ilk partiya təşkilatının sədri Telman Məhəmmədov təmsil etdikləri qurumlarda görülmüş işlər haqqında məruzələrlə çıxış ediblər.

Hesabat məruzələri səsə qoyularaq yekdilliklə qəbul olunub.

Daha sonra yeni təsis olunmuş ərazi ilk partiya təşkilatları – "Gənclər Fondu", "Milli Kitabxana" və "Şıx Sanatoriyası" ərazi ilk partiya təşkilatlarından daxil olmuş müraciətlərə baxılıb. Hər üç ərazi ilk partiya təşkilatının qeydiyyata alınması barədə qərar qəbul edilib.

Sonra "Xəzər dənizçiləri" ("Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC) ərazi ilk partiya təşkilatının sədri İzafət Məmmədov 25 iyun dənizçilərin peşə bayramı – "Dənizçi Günü" münasibətilə rayon təşkilatının fəxri fərmanı ilə təltif olunub.

Sonda cari məsələlərə baxılıb, müvafiq qərarlar qəbul edilib.

# "CƏFƏR CABBARLI" QURU YÜK GƏMİSİ ƏSASLI TƏMİRDƏDİR









***Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinin nəqliyyat donanmasına məxsus "Cəfər Cabbarlı" quru yük gəmisi "Zığ" Gəmi Təmiri Zavodunda əsaslı təmirdədir. Teploxodun bütün maşın və mexanizmləri təmir olunub. Hal- hazırda gəmidə gövdə-qaynaq işləri həyata keçirilir. Təmir prosesinin növbəti mərhələlərində gəminin anbarları modernizasiya olunacaq, ikinci gövdə qatı tikiləcək.***

Gəminn uzunluğu 123.50, eni 15 metrdir. Teploxodun maksimal sürəti 11.7 uzeldir.

Xatırladaq ki, "Cəfər Cabbarlı" gəmisinin məxsus olduğu Dəniz Nəqliyyatı Donanması müxtəlif təyinatlı yüklərin və sərnişinlərin daşınmasını həyata keçirir, rabitə, radiomərkəz və elektroradionaviqasiya üzrə müxtəlif xidmətlərin göstərilməsini təşkil edir, gəmilərin yüklənib-boşaldılmasını və yedək əməliyyatlarını, dibdərinləşdirmə işlərini aparır, habelə dəniz yolları naviqasiya işarələrinin yerləşdirilməsini və onların saz vəziyyətdə saxlanılmasını təmin edir, gəmilərin texniki istismar qaydalarına müvafiq olaraq vaxtında və keyfiyyətlə təmir edilərək Dəniz Registrinə təqdim olunması üçün tədbirlər görür.

Dəniz Nəqliyyatı Donanmasının strukturuna Quru yük liman məntəqəsi, Gəmi təmiri emalatxanası, Gəmi dalğıc və xilasetmə vasitələrinə xidmət üzrə stansiya və nəqliyyat gəmiləri daxildir.

# TANKER TƏMİRDƏN SONRA GÖZ OXŞAYACAQ









***Azərbaycan Xəzər Dəniz Gəmiçiliyinə məxsus "İslam Səfərli" tankerinin "Zığ" Gəmi Təmiri Zavodunda əsaslı təmirinə başlanılıb. Gəminin baş və köməkçi mühərrikləri, nasosları, elektrik mühərrikləri və digər mexanizmləri əsaslı təmir olunur.***

Gəmidə ümumi təmizləmə, gövdə hissəsində isə defektasiya işləri aparılır. Eyni zamanda yük anbarlarında və ballast çənlərində qüsur aktlarına əsasən gövdə-qaynaq işləri görülür.

Xatırldadaq ki, uzunluğu 125.06, eni 16.63 metr olan tankerin maksimal sürəti 11.3 uzeldir. Gəmiçiliyin nəqliyyat donanmasına məxsus gəmi maye yüklərin daşınmasında istismar edilir.

# BAKI LİMANI "BİR KƏMƏR - BİR YOL" BEYNƏLXALQ NƏQLİYYAT LAYİHƏSİNDƏ MÜHÜM YER TUTUR



***Çin Xalq Respublikasının Şenzen şəhər Regional İqtisadi Əməkdaşlıq Assosiasiyasının prezidenti Çen Zhiyonq və iş adamlarından ibarət nümayəndə heyəti Ələt qəsəbəsində yerləşən yeni Bakı Limanına səfər ediblər.***

Limandan bildirilib ki, Çin nümayəndə heyətinin səfərin əsas məqsədi limanla yaxından tanış olmaq və gələcək əməkdaşlıq sahələrini müzakirə etməkdir. Limanla tanışlıq zamanı onlara liman və onun ətrafında qurulmaqda olan Azad Ticarət Zonası barədə ətraflı məlumat verilib. Qonaqlar limanın ərazisi ilə əyani tanış olaraq bərə terminalına da baxış keçiriblər.

Çen Zhiyonq "Bir kəmər - bir yol" beynəlxalq nəqliyyat layihəsində Bakı Limanının mühüm yer tutduğunu və bu layihənin icrasında Bakı Limanından istifadə etməkdə maraqlı olduqlarını bildirib.

# QƏTƏR GƏMİLƏRİNİN SÜVEYŞ KANALI LİMANLARINA GİRİŞİNƏ QADAĞA QOYULUB



***Qətər gəmilərinin Süveyş kanalı limanlarına girməyə ixtiyarı yoxdur. Bu barədə Süveyş kanalının və ona bağlı iqtisadi zonanın istismarı üzrə idarənin rəhbəri Muhab Məmişin Qahirədə yayımlanan xüsusi bəyanatında bildirilir.***

TASS informasiya agentliyi xəbər verir ki, Qahirə bu addımı "təhlükəsizlik nöqteyi-nəzərindən" atdığını deyib.

Bəyanatda, həmçinin qeyd edilib ki, beynəlxalq qanunvericiliyə əsasən, Qahirə Qətər gəmilərinin bilavasitə Süveyş kanalından keçidini qadağan edə bilməz. Belə ki, beynəlxalq dəhlizin fəaliyyəti Süveyş kanalından azad istifadənin təmin edilməsinə dair 1888-ci ildə imzalanan İstanbul konvensiyasına uyğun olaraq nizamlanır. Konvensiya qul daşınması və narkotik ticarətində istifadə olunan, həmçinin Misirin müharibə vəziyyətində olduğu ölkələrə məxsus gəmilər istisna edilməklə, bütün su nəqliyyatı vasitələrinin kanalda sərbəst hərəkətini nəzərdə tutur.

Xatırladaq ki, iyunun 5-də Səudiyyə Ərəbistanı, Misir, Birləşmiş Ərəb Əmirlikləri və Bəhreyn Qətəri beynəlxalq terrorizmi dəstəkləməkdə ittiham edərək, onunla diplomatik münasibətləri kəsiblər. Daha sonra Küveyt və Oman istisna olmaqla, digər körfəz ölkələri də onlara qoşulub.

# İTKİN DÜŞƏNLƏRİN AXTARIŞI DAVAM EDİR



***Çinin Cıcian vilayətinin şərq sularında qayıqçı balığının batması nəticəsində 8 nəfər itkin düşüb.***

Yerli KİV-lər bildirir ki, göyərtəsində 24 nəfər olan qayıq gecə saat 2 radələrində batıb. Polisə isə təxminən 2 saat sonra bu barədə məlumat daxil olub.

Hazırda itkin düşənlərin axtarış işləri davam edir.

# BATAN GƏMİNİN BÜTÜN DƏNİZÇİLƏRİ XİLAS EDİLİB



***Hind okeanının Riçards körfəzində "HSIANG FUH 6" gəmisi batıb. Gəminin göyərtəsində olan 30 nəfərlik heyət isə ticarət gəmiləri tərəfindən xilas edilib.***

Belə ki, dəniz yoldaşlığı qanunu ilə köməyə tələsən "EVER DİADEM" konteynerdaşıyanı16, "SBİ ANTARES" balkeri isə 14 dənizçini xilas edib.

Batan gəmidən çıxarılan bütün dənizçilər Durban şəhərinə çatdırılıb.

Hazırda hadisənin səbəbləri araşdırılır.

# GÖYƏRTƏSİNDƏ 150 SƏRNİŞİN OLAN GƏMİDƏ XİLASEDİCİ JİLETLƏR OLMAYIB



***Kolumbiyanın Quatape şəhəri yaxınlığında turist gəmisinin batması nəticəsində 9 nəfər ölüb.***

TASS agentliyi xəbər verir ki, qəza nəticəsində 28 nəfər itkin düşmüş hesab edilir.

İlkin ehtimala görə, hadisəyə gəminin həddən artıq yüklənməsi səbəb olub. Göyərtəsində 150 sərnişin olan gəmidə xilasedici jiletlər olmayıb.

# MİQRANTLARI DAŞIYAN REZİN QAYIĞIN BATMASI NƏTİCƏSİNDƏ 126 NƏFƏR İTKİN DÜŞÜB



***Liviya sahillərində miqrantları daşıyan rezin qayığın batması nəticəsində 126 nəfər itkin düşüb.***

TRT-nin verdiyi məlumata görə, balıqçılar 4 nəfəri xilas edə biliblər.

Rezin qayıqda 130 nəfər olub.

# XƏZƏR DƏNİZİNDƏ BALIQ EHTİYATLARI AZALIB

***Son 10-15 ildə Xəzər dənizində balıq ehtiyatlarının azalması müşahidə edilir. Bunun əsas səbəblərinin müəyyənləşdirilərək azalmasının qarşısının alınması istiqamətində tədbirlər görülür. Buna səbəb Kür çayında bəndlərin salınması ilə təbii şəraitdə kürütökmə məqsədilə keçici və yarımkeçici balıqların çaylara miqrasiya şəraitinin pozulması, çaylarda kürütökmə yerlərinin korlanması nəticəsində balıqların çoxalma və artım tempinin kəskin azalması, qanunsuz balıq ovu və sair amilləridir.***

Bu barədə Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Su Hövzələrində Bioloji Resursların Artırılması və Mühafizəsi Departamentinin baş müfəttişi İsmayıl Yunusov AZƏRTAC-a məxsusi müsahibəsində deyib.

İ.Yunusov qanunsuz balıq ovlayanlara qarşı ciddi mübarizə tədbirlərinin görüldüyünü diqqətə çatdırıb. O, cari ilin altı ayı ərzində 22 nəfərin qanunsuz balıq ovu ilə məşğul olduğuna görə məsuliyyətə cəlb edildiyini bildirib. Baş müfəttiş respublika ərazisində akvakulturanın inkişaf etdirilməsinin də balıq ehtiyatlarının qorunması və artırılmasında mühüm addım olduğunu qeyd edib: “Balıq ehtiyatlarının artırılması ilə 12 balıqartırma müəssisəsi məşğul olur. Bunlardan dördü nərə, üçü qızılbalıq və forel, beşi isə çəkikimi balıq körpələrinin artırılması üzrə ixtisaslaşıb.

“Balıqçılıq haqqında” Qanuna əsasən, ölkəmizdə balıq ovunun tənzimlənməsi və brakonyerliklə mübarizə vəzifələrinin müvafiq icra hakimiyyəti orqanının səlahiyyətlərini Ekologiya və Təbii Sərvətlər Nazirliyi həyata keçirir. Respublikada mövcud balıqçılıq təsərrüfatı əhəmiyyətli su hövzələri nazirliyin Su Hövzələrində Bioloji Resursların Artırılması və Mühafizəsi Departamentinin fəaliyyət obyektləridir. Departamentin tərkibinə daxil olan Su Hövzələrində Bioresursların Mühafizəsi Xidməti öz fəaliyyətini 4 regional sektor vasitəsilə həyata keçirir. Bu sektorlar Xəzər dənizinin Azərbaycana aid sularında və respublikanın daxili su hövzələrində qeyri-qanuni balıq ovu və balıq ovu qaydalarının pozulması hallarına qarşı müvafiq tədbirləri həyata keçirirlər. Cərimə sanksiyalarının və cəzaların tətbiqi məqsədilə Cinayət və İnzibati Xətalar məcəllələrindən istifadə olunur. Balıq mühafizə qanunvericiliyinin pozulmasına qarşı mübarizədə Su Hövzələrində Bioresursların Mühafizəsi Xidməti hüquq-mühafizə orqanları və sərhəd qoşunları ilə sıx əməkdaşlıq edir”, - deyə İ.Yunusov bildirib.

# QONŞU ÖLKƏYƏ BEYNƏLXALQ SULARA ÇIXIŞ ÜÇÜN SU KORİDORU VERMƏLİDİR

***Uzun illərdən bəri Sloveniya və Xorvatiya arasında su və quru sərhədlərinin bölüşdürülməsinə dair hüquqi mübahisə ilə bağlı Haaqa Arbitraj Məhkəməsi öz qərarını elan edib. Məhkəmənin qərarına görə, Adriatik dənizinin sahilində yerləşən və iki Balkan ölkəsi arasında mübahisə mənbəyi olan Piran buxtasının böyük bir hissəsi Sloveniyanın tabeliyinə keçməli və həmçinin Xorvatiya qonşu ölkəyə beynəlxalq sulara çıxış üçün su koridoru verməlidir.***




Sloveniyanın STA agentliyinin yaydığı məlumatda hakim Jilber Giyomun yeni dəniz və quru sərhəd xəttinin keçməli olduğu əraziləri bəyan etməsi qeyd olunub. Sloveniya tərəfi Piran buxtasına tam olaraq iddialı olsa da, beynəlxalq sulara çıxış imkanı verən əsas hissəsini əldə edib. Xorvatiya tərəfi isə iki ölkə sərhədində delimitasiyası nəticəsində strateji əhəmiyyət daşıyan Trdinov vrh dağ zirvəsi üzərində nəzarəti əldə etməlidir.

1991-ci ildə hər iki dövlət müstəqilliyini əldə etdikdən bəri sərhəd xətti ilə bağlı mübahisə nizamlana bilmir. Hətta 2008-ci ildə münaqişə öz kulminasiya nöqtəsinə çatıb və Sloveniya bir neçə ay Xorvatiyanın Avropa İttifaqı üzvlüyünə dair danışıqlara blokada tətbiq edib. 2009-cu ildə hər iki tərəf mübahisənin beynəlxalq arbitraj məhkəməsi vasitəsilə həllinə razılaşsa da, 2015-ci ildə Xorvatiya qonşu dövlətin arbitraj qaydalarını pozmaqda ittiham edərək arbitraj prosesində iştirak etmədiyini bəyan edib. Beynəlxalq məhkəmənin hazırkı qərarı Sloveniya tərəfindən qəbul edilsə də, Xorvatiya qərarla tanışlıqdan imtina edib. Xorvatiyanın Prezidenti Kolinda Qrabar-Kitaroviç, Baş naziri Andrey Plenkoviç məhkəmənin qərarı elan edilməmişdən bir neçə gün əvvəldən vurğulayıblar ki, arbitraj prosesi Xorvatiya üçün artıq mövcud deyil.

Xorvatiyanın Baş naziri məhkəmə qərarını şərh edərkən Sloveniyanı birtərəfli qaydada addımlar atmaqdan çəkinməyə çağırıb: “Xorvatiyanın öz dövlət ərazisi və maraqlarını qorumaq üçün imkanları mövcuddur”.

***Elgün Niftəli***



## QƏTƏRİN İKİ TANKERİ BƏƏ LİMANINA BURAXILMAYIB

***Dörd ərəb ölkəsinin, o cümlədən Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) Qətərə tətbiq etdikləri sanksiyalara görə, bu ölkənin qaz kondensatı daşıyan iki tankeri BƏƏ limanına buraxılmayıb. Bu barədə Əmirlikdə çıxan “The National” qəzeti Abu-Dabi Milli Neft Şirkətinin – ADNOC-un bəyanatına istinadla yazıb.***

Məlumatda bildirilir ki, Doha barəsində sanksiyalar qüvvədə olduğuna görə, 1 milyon barrel kondensatla Ər-Ruvaysda neft emalı zavoduna istiqamət götürən iki tankerin geri qaytarılması barədə qərar qəbul edilib.

## TANKERDƏ YANĞIN ZAMANI AZI 123 NƏFƏR ÖLÜB, ONLARLA İNSAN XƏSARƏT ALIB

***Pakistanın şərqində neft tankerində baş verən yanğın zamanı yüzdən çox insan həlak olub.***

Geo TV telekanalının xilasetmə xidmətinin əməkdaşlarına istinadla yaydığı məlumata görə, yanğın Pəncab əyalətində meydana gəlib. Yanğının qurbanı azı 123 nəfər olub. Daha 40 nəfər zərər çəkib. Onların əksəriyyətinin bədəninin 70 faizi yanıb. Ölənlərin sayının artacağı istisna edilmir.

Yanğının səbəbi barədə məlumat verilmir.



## İLİN İLK YARISINDA ARALIQ DƏNİZİNDƏ İKİ MİNDƏN ÇOX QAÇQIN HƏYATINI İTİRİB

***Bu ilin ilk yarısında Aralıq dənizində iki mindən çox qaçqın həlak olub. Bu barədə mərkəzi qərargahı Cenevrədə yerləşən Beynəlxalq Miqrasiya Təşkilatı (BMqT) məlumat yayıb. Aralıq dənizində itkin düşən və ya həlak olan 2108 qaçqından 2011 nəfəri Liviya və İtaliya arasındakı mərkəzi dəniz yolu üzərində həyatını itirib.***

Məlumatda, həmçinin bildirilir ki, ötən ilin müvafiq dövründə Aralıq dənizində həlak olan qaçqınların sayı 2911 nəfər olub. Bununla da ardıcıl olaraq dördüncü ildir ki, Aralıq dənizində həlak olanların sayı iki min nəfərdən çoxdur.

Dəniz yolu ilə Avropaya pənah aparan qaçqınların sayı bu ilin ilk yarısında 84 min nəfərə yaxın olub. Onların əksəriyyəti İtaliya (təxminən 72 min nəfər) sahillərinə yan alıb, kiçik hissəsi isə Yunanıstanda (8363 nəfər) və İspaniyada (3314 nəfər) sığınacaq tapıb.

Dəniz yolu ilə Avropaya qaçqın axınında nisbətən azalma da müşahidə edilib. Belə ki, keçən ilin ilk yarısında dəniz yolu ilə Avropaya üz tutan qaçqınların sayı 216 min nəfər idi. Yunanıstan sahilləri istiqamətində hərəkət edən qaçqınların əksəriyyəti Suriya vətəndaşları, Liviyadan İtaliya istiqamətində hərəkət edən qaçqınlar isə əsasən Nigeriya, Eritrea və Qvineya sakinləridir.

# BİRGƏ HƏRBİ TƏLİMLƏRƏ BAŞLAYIBLAR

***Avstraliya və ABŞ genişmiqyaslı birgə hərbi təlimlərə başlayıblar.***



Təlimlərdə ABŞ və Avstraliyanın 33 min hərbçisinin iştirak etdiyi bildirilir. Avstraliyaya məxsus ərazi sularında keçiriləcək təlimlər bir ay çəkəcək. Təlimlər zamanı həm dənizdə, həm də havada əməliyyatların keçiriləcəyi planlaşdırılır.

ABŞ-ın Sakit okean komandanlığının rəhbəri Qarri Harrisin sözlərinə görə, təlimlər Cənub-Çin dənizindəki mübahisəli adalarla əlaqədar mübahisələrin gərginləşməsi fonunda keçirilir.

Çinin regionun bir sıra ölkələri ilə, xüsusən Yaponiya, Vyetnam və Filippinlə dəniz sərhədləri, o cümlədən Cənub Çin və Şərqi Çin dənizlərində məsuliyyət zonaları ilə əlaqədar fikir ayrılıqları mövcuddur. Çinin qənaətinə görə, Vyetnam regionda gərginliyi artırmaq üçün ABŞ-dan istifadə etməyə çalışır.

# NƏZARƏTİ GÜCLƏNDİRİB

***İyunun 27-də Yaponiya hökuməti üçüncü ölkələrə məxsus gəmilərdə Şimali Koreyaya raket-nüvə və digər hərbi proqramlar üçün materialların daşınmasına qarşı tədbirləri gücləndirib.***



Nazirlər Kabinetinin iclasında təsdiq edilən qərara görə, müvafiq materialların daşınmasının qarşısını almaq üçün üçüncü ölkələrin gəmilərinə və digər nəqliyyat vasitələrinə nəzarət gücləndirilir. Kyodo agentliyinin yaydığı məlumata əsasən, burada söhbət mülki işlər üçün nəzərdə tutulan, lakin hərbi məqsədlərlə istifadəsi mümkün olan materiallardan gedir.

Hökumətin təsdiq etdiyi yeni siyahı yalnız Yaponiyadan deyil, eyni zamanda, üçüncü ölkələrdən Şimali Koreyaya aparılması qadağan edilən əmtəələri özündə əks etdirir. Siyahı barədə açıq məlumat verilmir.

Yaponiya Nazirlər Kabinetinin baş katibi Yoşihide Suqa Tokioda keçirilən mətbuat konfransında deyib: “Biz BMT Təhlükəsizlik Şurasının Şimali Koreya ilə əlaqədar qətnamələrini daha sərt formada həyata keçirmək niyyətindəyik”.

Şimali Koreyanın nüvə və raket sınaqları ilə əlaqədar Tokio bu ölkəyə qarşı öz sanksiyalarını tətbiq edib. İki ölkə arasında ticarət və birbaşa nəqliyyat əlaqəsi kəsilib. Yaponiya limanları Şimali Koreyadan olan gəmilər üçün bağlanıb. Pxenyan ilə Tokio arasında diplomatik əlaqələr də yoxdur.

***Vüqar Ağayev***



## TEXNOLOGİYANIN KÖMƏYİ İLƏ GƏMİDƏ BİR ÇOX QƏZANI ƏNGƏLLƏMƏK MÜMKÜN OLACAQ

***Dənizçilərin yorğunluğunu aradan qaldırmaq üçün texnologiya hazırlanır.***

Avstraliyada yerləşən “BHP Billiton” şirkəti texnologiyanın köməyi ilə gəmidə çalışanların yorğunluğunu aradan qaldırmaq üçün “yorğunluq idarəetmə sistemi”nin yaradılmasını təklif edib.

“BHP Billiton”nun apardığı üçillik araşdırmanın nəticəsinə görə, altı aydan çox çəkən səfər gəmi adamlarının yorğunluğunu artırır, yuxu pozğunluğuna səbəb olur və ən əsası motivasiyanı azaldır. Bu da gəmidə qəza riskini yüksəldir.

Yeni layihə cihazlar və alqoritmik məlumatların analizləri əsasında işləyəcək. Bu cihazın gəmi adamlarının yorğunluğunu müəyyənləşdirməklə yanaşı, problemi həll etmək imkanı da olacaq. Texnologiyanın köməyi ilə gəmidəki bir çox qəzanı əngəlləmək də mümkün olacaq.

Bunun üçün əvvəlcə bioizləmə sayəsində yuxu keyfiyyəti, ürək-damar sağlamlığı və stress həddi müəyyənləşdiriləcək. Sonra məlumatlar əsasında hesabat hazırlanacaq. Qəza ehtimalını müəyyənləşdirmək üçün həmin hesabata alqoritmlər tətbiq ediləcək.

Həmçinin, yeni texnologiya yaxşı gəmi sahibini digərlərindən ayırmaq üçün də unikal vasitə olacaq.




## “M/V ACT” GƏMİSİNƏ EGEY DƏNİZİNDƏ ATƏŞ AÇILIB

***Türkiyə bayrağı altında üzən “M/V ACT” adlı quru yük gəmisinə Egey dənizində Yunanıstanın sahil-mühafizə qüvvələri tərəfindən atəş açılıb.***

Rəsmi məlumata görə, gövdəsinə 16 mərmi dəyən gəmi dayanmayaraq özünü Türkiyənin ərazi sularına çatdırıb.

Türkiyənin Xarici İşlər Nazirliyi hadisədən təəssüfləndiyini ifadə edib. Nazirlik insidentlə bağlı açıqlamasında Kipr adasına dair problemin müzakirə olunduğu bir vaxtda İsgəndəriyyə və İzmit limanları arasında hərəkət edərək Rodos adası yaxınlığında lövbərdə olan gəminin atəşə tutulmasını ilk növbədə insan həyatına təhlükə yaradan hadisə kimi qınayaraq ümid etdiyini bildirib ki, gələcəkdə belə hallar təkrarlanmayacaq.



## BİRLƏŞMİŞ KRALLIQ BALIQÇILIĞIN TƏNZİMLƏNMƏSİ ÜZRƏ BEYNƏLXALQ KONVENSİYADAN ÇIXACAQ

***Birləşmiş Krallıq balıqçılığın tənzimlənməsi üzrə beynəlxalq konvensiyadan çıxacaq. Bu konvensiya digər ölkələrin vətəndaşlarının Britaniya sularında balıq tutmasına icazə verir.***

Böyük Britaniyanın ətraf mühit üzrə naziri Maykl Qov qeyd edib ki, beləliklə, Birləşmiş Krallıq öz sularında nəzarəti bərpa edəcək. Əlli ildən artıqdır ki, ilk dəfə olaraq, Birləşmiş Krallıq su hövzələrinə hansı ölkələrin vətəndaşlarının girə biləcəyinə qərar verəcək.

Konvensiyadan çıxdıqdan sonra Britaniya balıqçıları da başqa ölkələrin sularında balıq tutmaq hüquqlarını itirəcəklər.

## ƏN UZUN DƏNİZ KÖRPÜSÜNÜN TİKİNTİSİ BAŞA ÇATIB

***Honkonq, Cuhay və Makaonu birləşdirən dünyanın ən uzun dəniz körpüsünün əsas konstruksiyasının tikintisi başa çatıb.***



Euronews telekanalı xəbər verir ki, körpünün tikintisi 7 ilə tamamlanıb və artıq 2017-ci ilin sonunda istifadəyə verilməsi planlaşdırılır.

Təxminən 7 kilometrlik yeraltı tunellə birlikdə körpünün uzunluğu 55 kilometrdən çoxdur. Onun tikintisində 420 min ton polad işlədilib.

## FRANSA PREZİDENTİ ATOM SUALTI QAYIĞINDA DƏNİZİN DİBİNƏ ENİB

***Fransa Prezidenti Emmanuel Makron nüvə raketinin startını imitasiya edən təlimlərə qatılaraq atom sualtı qayığının göyərtəsində bir neçə saatlıq dənizin dibinə enib.***

BBC.com saytı xəbər verir ki, Fransa Prezidenti “Le Terrible” sualtı qayığına helikopter vasitəsi ilə enib və həmin fotoşəkli sosial şəbəkələrdə yerləşdirib.

Xatırladaq ki, Böyük Britaniya 2019-cu ildə Avropa İttifaqını tərk etdikdən sonra Fransa Aİ-yə üzv 27 ölkə arasında nüvə silahına malik yeganə dövlət olacaq.

Təlimlər prezidentin “İle Longue” hərbi dəniz bazasına səfər proqramının bir hissəsidir. Fransanın ballistik nüvə raketi ilə təchiz olunmuş 4 atom sualtı qayığının hamısı məhz burada yerləşir.

Sualtı qayıqlardan əlavə, Fransanın Hərbi Hava Qüvvələri də nüvə silahlarına malikdir. Ümumilikdə ölkənin nüvə arsenalı 300 döyüş başlığından ibarətdir.





## YUXU SAATI AZALDIQCA XOŞBƏXTLİYİN SƏVİYYƏSİ DƏ AŞAĞI DÜŞÜR

***Yuxu gün ərzindəki bütün fəaliyyətin təməli hesab olunur. Narahatlıq və gərginliyin səbəbini çox vaxt yuxu saatının azlığı ilə əlaqələndirirlər.***

Alimlərin apardığı yeni araşdırma nəticəsində məlum olub ki, gün ərzində 7 saat 6 dəqiqə yatmaq xoşbəxt olmağın əsas şərtlərindən biridir. Onların apardığı təcrübədə minlərlə könüllü iştirak edib. Təcrübə nəticəsində müəyyən olunub ki, qismən xoşbəxt olanlar isə 6 saat 54 dəqiqə yatırlar. Aparılan araşdırmalara görə, 6 saat 48 dəqiqədən az yuxu yatmaq narazılığın artması deməkdir. Həmin yuxu rejiminə malik olanlar münasibətlərindən narazı və daima narahatdırlar.

Mütəxəssislər müəyyən ediblər ki, yuxu saatı azaldıqca xoşbəxtliyin səviyyəsi də aşağı düşür. Dərin yuxuya getməyin sadə yolları da müəyyən edilib. Təcrübə iştirakçısı olan könüllülərdən yatmazdan əvvəl duş qəbul edən və meditasiyaya dalanların yuxusunun daha keyfiyyətli olduğu aşkarlanıb. Video oyunlar oynamağa üstünlük verilməsi isə yuxusuzluq yaradır.

## UŞAQLAR ÜÇÜN XƏZƏR DƏNİZİNDƏ GƏZİNTİ TƏŞKİL OLUNUB









***Yay tətili günlərində uşaqların və yeniyetmələrin zərərli vərdişlərdən uzaqlaşdırılması, istirahət müddətində onların bilik səviyyələrinin artırılmasına kömək göstərilməsi məqsədilə Nəsimi Rayon İcra Hakimiyyətinin (RİH) orta məktəb şagirdləri üçün keçirdiyi silsilə tədbirlər davam edir.***

Uşaqlar və yeniyetmələr üçün Xəzər dənizində gəzinti təşkil olunub. Təhsildə və idmanda fərqlənən, şəhid və veteran ailələrindən, həmçinin aztəminatlı ailələrdən olan ümumilikdə 120 məktəbli "Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi" QSC-nin yeni, müasir "Xudafərin" gəmisi ilə dəniz səyahətinə çıxıb.

RİH-in başçısının birinci müavini Gülarə Verdiyeva uşaqlarla səmimi söhbət edərək dövlətimiz tərəfindən onların təhsili, sağlamlığı və istirahərlərinin səmərəli təşkili istiqamətində görülən işləri xüsusi vurğulayıb. O, həmçinin Prezident İlham Əliyevin və Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın gələcəyimiz olan uşaqlara diqqət və qayğısından danışıb.

Bakı buxtasından paytaxtımızı seyr edən uşaqlar, həm də məharətlərini göstərərək şeir və mahnılarla həmyaşıdları qarşısında çıxış ediblər.

## DÜNYA ƏHALİSİ ƏVVƏLLƏR OLDUĞUNDAN ZƏİF TEMPLƏ ÇOXALACAQ

***2050-ci ildə dünya əhalisinin sayı təxminən 10 milyard nəfərə çatacaq, daha 50 il sonra isə 11 milyardı ötəcək.***

RİA Novosti informasiya agentliyinə istinadla xəbər verir ki, bu faktlar BMT-nin dərc olunmuş tədqiqatında əksini tapıb.

Hazırda planetimizdə 7,4 milyarda qədər insan yaşayır. Məlumatda, həmçinin bildirilir ki, proqnozlara əsasən, növbəti 13 ildə dünya əhalisi bir milyarddan bir qədər çox artaraq, 2030-cu ildə 8,6 milyard nəfərə çatacaq. Sonra 2050-ci ildə 9,8 milyard, 2100-cü ildə isə 11,2 milyard nəfərədək artacaq.

Qeyd olunur ki, Yer əhalisi əvvəllər olduğundan zəif templə çoxalacaq: on il əvvəl əhali artımı 1,24 faiz təşkil edirdi, indi isə artım 1,10 faizdir. 2050-ci ilədək əsas artım Hindistan, Nigeriya, Konqo, Pakistan, Efiopiya, Tanzaniya, ABŞ, Uqanda və İndoneziyada gözlənilir.

## QAN QRUPUNUZ DEYİR Kİ...

***Qan qrupuna əsasən, xasiyyət və fərdi keyfiyyətləri öyrənmək mümkündür. Yaponiyada qan qruplarına xüsusilə böyük əhəmiyyət verilir.***



Gündoğar ölkədə evlənərkən, idman komandası formalaşdırarkən hansı qan qrupuna çox ciddi fikir verirlər. Hətta bəzən mağaza vitrinlərində də məhsulları qan qruplarına görə düzürlər.

Yaponların fikrincə, birinci qan qrupunun daşıyıcıları daha çox ambisiyalı, liderliyə can atan və nikbin olurlar. Hətta onlarda eqoistlik keyfiyyətinin varlığı da mümkündür. İkinci qan qrupuna aid olanlar səliqə-sahmanı və qayda-qanunu sevirlər. Onlar tərs və müəmmalı xarakterə malik olurlar. Üçüncü qan qrupunun daşıyıcıları isə yaradıcı təbiətə malikdirlər. Onlar ictimai rəyə əhəmiyyət vermir, öz azadlıq və rahatlıqlarını hər şeydən üstün tutur və bəzən həddən artıq emosionallıq nümayiş etdirirlər. Damarlarında dördüncü qan qrupu axanlar isə daha çox təşkilatçı və diplomat olurlar, bəzi hallarda ideya uğrunda heç nəyi, hətta canlarını da əsirgəmirlər. Lakin təəssüf ki, qərar qəbul etməkdə çətinlik çəkirlər.

## QANALMA

***Dəri altındakı durğun qanın və toxumalar arasında toplanıb qalmış maddələrin sorma üsulu ilə xaric olunması rahat qan dövranının bərpa edilməsi həcəmət adlanır. Bəzən hicama da adlandırılan bu üsul el arasında "qan almaq" kimi başa düşülür. Həmin prosedur immun sisteminin işini əngəlləyən zəhərli və keyfiyyətini itirmiş qanın orqanizmdən çıxarılması məqsədilə aparılır.***

Bol günəş işığı və radiasiya aktivliyi qanın qatılığını çoxaldır, dəri xərçəngi riskini artırır. Qanalma proseduru ağrısız, yataq vəziyyəti almadan və vaxt itirmədən tətbiq edilir və prosedur nəticəsində ağır metallar, toksinlər, sərbəst radikallar, istifadə olunan dərmanlardan qalan mübadilə məhsulları, süni rəngləyici kimyəvi maddələr, məhsulların vaxtını uzatmaq üçün istifadə edilən stablizatorlar orqanizmdən xaric olur. Vaxtilə ən çox istifadə edilən müalicə növü olan qanalmanın çoxlu faydaları var. Orqanizmdə qan durğunluğuna səbəb olan çirklənmiş qanın yerinə yeni, oksigenlə zəngin, təmiz və duru qan gəlməsi həmin nahiyələrin özünü bərpa etməsini gücləndirir. Dəri gözəlləşir və qan təzyiqini tam normada saxlayır. Heç vaxt infarkt və insult keçirmək təhlükəsi yaranmır.

Qanalma proseduru bir neçə nahiyədən aparılır. Qan almaq üçün ən çox istifadə olunan nahiyə baş, kürəklərarası, boyun və ürəyin arxasıdır. Başın arxası beynin həyati vacib mərkəzlərinə yaxın olduğuna görə ən yaxşı yer hesab olunur. Bel ətrafı, büzdüm nahiyəsi, baldırların arxası, alın ətrafı, dizlər və topuq üstü sahələrdən də qan alınır. Qanalma prosedurundan sonra görmə qabiliyyəti yaxşılaşır, yaddaş güclənir, beyində endofrin və serotonin hormonunun ifrazı çoxalır, hipofiz vəzinin fəaliyyəti və aktivliyi artır. Ödemlər, miqren və qulaqda küy, oynaq və revmatizm xəstəliklərində də qanalma çox faydalıdır. Prosedurun yaz və payız fəsillərində aparılması daha yaxşı təsir göstərir.



## DÜNYA FAUNASININ "ƏN ZƏKALI"LARI

***4 iyul - Beynəlxalq Əsir Delfinlər Günü idi. Bu gün 2009-cu il iyulun 4-də Avropa Heyvan Rifahı Qrupu İttifaqı tərəfindən keçirilən kampaniya çərçivəsində qeyd edilməyə başlanılıb.***

Avropa İttifaqı ərazisində 33 delfinariya var və burada 6 müxtəlif növdən 290 dəniz məməlisi saxlanılır. Sayına görə ən çox delfinariya İspaniyadadır (11).

Delfinlərin dünyada 40-dan çox növü var. Cəld və sürətlə üzən delfinlər inkişaf etmiş səs siqnalizasiyasına və bu siqnalları qəbuletmə sistemlərinə malikdir. Alimlər müəyyən ediblər ki, delfinlərin bir-biri ilə ünsiyyət qurması üçün 14 minə qədər səs siqnalından ibarət "lüğət ehtiyatları" var. Onların səmtbilmə qabiliyyətləri çox yaxşı inkişaf edib. Belə ki, delfinlər şaqqıltılı səslər və ya ucadan qırıq-qırıq fit səsinə oxşar ultrasəslər buraxır və balıqlara toxunub qayıdan həmin səsləri tutmaqla ovlarını tapırlar. Delfinlər gec böyüyür və 20-30 ilə qədər yaşayırlar.

Həmin dəniz canlıları dünya faunasının "ən zəkalı"ları sırasındadırlar.

## SU ALTINDA İSTİRAHƏT







***Zənzibar arxipelaqında, Pemba adası sahilləri yaxınlığındakı sularda quraşdırılan kiçik ev turistlərin sevimli istirahət yerinə çevrilib.***

"novate.ru" saytı bildirir ki, bu orijinal ev qeyri-standart yanaşmaları ilə seçilən İsveçin "Gemberg" şirkətinin layihəsi əsasında hazırlanıb.

Turistləri əsas cəlb edən evin sualtı otağıdır. Evin yuxarı hissəsində qonaq və vanna otaqları, eləcə də mətbəx yerləşdirilib.

Otelin yataq otağı isə "su altında" qalıb. Burada eksklüziv istirahət heç də ucuz başa gəlmir. Belə ki, 2 sutkalıq sualtı istirahət 2000 dollaradır.

## YARIZARAFAT, YARIGERÇƏK

**Allah da onun-bunun sözünə inanırsa, vay mənim halıma.**

**Qarın davaları adətən bütün davalardan çox çəkir.**

**Hesabla məndən ən çox soğan iyi gəlməlidir. Keyfimə o qədər soğan doğrayıblar ki...**

**Hər yaltağın öz dövranı, hər dövranın öz yaltağı var.**

**Hətta bir "molodes"ə görə də mənim üzümə duranlar olub.**

**İki uzunqulağın arpasını bölə bilməyənə nə və niyə sübut edim?**

**Qızıl adam qızıldan qiymətlidir.**

**Adam var, külək əsən səmtə yıxılandan heç yeri ağrımır.**

**Yer var atına güvənirlər, yer var itinə.**

**Allah bizimlə olanda görəsən biz harda oluruq?**

**Düşmən zəif olanda da, savaşa ən güclü düşmənlə savaşacağın kimi hazırlaş.**

**Bəri başdan etiraf edim ki, qəzetçi olduğum üçün mənim ipimin üstünə uzağı qəzet kağızı yığmaq olar...**

**Fil qulağında yatmaq yaxşı olsaydı, Hindistanda hamı fil qulağında yatardı.**

**Ən azı, balta soyuq silah olduğu üçün yıxılana balta vuranlar cəzalandırılmalıdır.**

**Təsəllim bircə budur ki, bəziləri məni keçi qiymətinə satandan, ət xeyli bahalaşıb.**

**Çörəyi daşdan çıxanla daşı ətəyindən tökməyən adamın ümumi nəyi ola bilər ki?**

**Daldan atılan daş indi nadir hallarda topuğa dəyir.**

**Qocalmışam deyəsən?! Özüm öz üzümə dururam.**

**Qəribədir, bəziləri əvvəlcə adam axtarırlar. Tapandan sonra isə ilk növbədə adamlığını itirirlər.**

**Uzunqulağı nəyin yanında bağlasan, yenə uzunqulaq qalar.**

**Adamın əli aşağı olanda, ən çox baş xəcalət çəkir.**

**M. Qorbaçov sübut etdi ki, arvad SSRİ-dən böyük qüvvədir.**

**Allah insaflıya pul versin, pulluya insaf verməsə də olar.**

**Danışanda dilimi kəsməyə çalışıblar, danışmayanda pulumu.**

**Xoşbəxtliyimdən məni heç kəs başa düşməyir.**

**Yer üzündə nə qədər qadın varsa, azı o qədər də mələk var.**

**Tanrı kişiləri çox istəməsəydi, qadınları o qədər gözəl yaratmazdı.**

**Ən böyük yalançı özünə yalan danışandır.**

**Şanslı adamın ağlı olmaya bilər, ağıllı adamın isə həmişə şansı olur.**

**Hər kədər ömürdən nə qədərsə kəsir.**

**Həyata əyləncə kimi baxanla həyat özü əylənir.**

**Yazıya pozu yoxdur deyənlərin heç biri pozan satan deyil.**

**Allah deyəsən qaçandan çox qovana kömək edir axı...**

**Kiminsə yerinə göz dikən sonda özünü itirir.**

**Yerində olmayan adamları heç olmasa başqalarına hörmət xatirinə yerində oturtmaq lazımdır.**

**Nə standart? Heyf deyil hərənin öz arşını.**

**Bəzilərindən çox şey çıxsa da yaxşı adam çıxmır.**

**Edə biləcəklərinizi edin. Edə bilməyəcəkləriniz haqqında heç düşünməyin də.**

**Kapitanın gəmidə nəyi olmasa da, mütləq başı olmalıdır.**

**Dost ən tez dənizdə tanınır.**

**Allah da, dənizdə ilk növbədə cəsurlara kömək edir.**

**Su nə qədər ucuz olsa da, düşmənin dəyirmanına tökməzlər.**

**Mən adam tanıyıram ki, yaxşılığın nə olduğunu bilmir.**

**Kaş mərdin işi yalnız mərdə, namərdin də işi özündən betər namərdə düşsün.**

**Həqiqətdən qorxan daha qorxulu adamdır.**

**Çörək zavodunun direktorundan başqa kimsə deyə bilməz ki, mən kiminsə çörəyini yeyirəm.**

**Fələk neçəyə kimi saya bilir?**

**İkiüzlü ölkələr görəndən sonra az qalır ikiüzlü adamlara şükür edim.**

**Mövzu qıtlığıdır? Ancaq yaxşıların arxasınca danışırlar?**

**Şirin şeylər ziyandır. Şirin vədlər də?**

**Bəzi çobanlara baxanda, qurda min şükür.**

**Qabında heç nə olmayandan nə umasan?**

**Bəzi ölkələrin başında hələ də keçmiş SSRİ-nin havası qalıb.**

**Bircə mən kifayət elədiyim üçün mənimlə dost olduğunu düşünənin düşməni olmur?**

*Rasif TAHİROV*



## BOKSÇUMUZ PEŞƏKAR RİNQDƏ NÖVBƏTİ QƏLƏBƏSİNİN SEVİNCİNİ YAŞAYIB

***“Qəbələ” idman klubunun boksçusu Zamiq Atakişiyev peşəkar rinqdə növbəti döyüşünü keçirib.***

31 yaşlı idmançımızın peşəkarlar arasındakı 4-cü sınağı Rusiyanın Maqnitoqorsk şəhərində baş tutub. O, İvan Romazan adına İdman sarayında təşkil olunan boks gecəsində qüvvəsini sınayıb. Ağır çəki kateqoriyasında çıxış edən Z.Atakişiyev reytinq döyüşündə Latviya təmsilçisi Edqars Kalnars ilə qarşılaşıb. Boksçumuz emosional və baxımlı alınan döyüşün ilk saniyələrindən üstünlüyü ələ alıb. Artıq 1-ci raundda onun zərbəsindən sonra rəqib rinqə yıxılsa da, özündə güc taparaq ayağa qalxıb. Lakin Zamiqin güclü zərbələri latviyalı idmançının döyüşü başa çatdırmasına imkan verməyib. İkinci raundda təmsilçimiz texniki nokautla qələbə qazanıb. Beləliklə, 6 raund davam etməli olan görüş 2-ci hissədə başa çatıb.

Xatırladaq ki, bunadək peşəkar rinqdə 3 döyüş keçirən Z.Atakişiyev bütün görüşlərdə qələbə qazanıb.

## BAKIDA KEÇİRİLƏCƏK ATICILIQ ÜZRƏ AVROPA ÇEMPİONATINDA 43 ÖLKƏDƏN İDMANÇILAR MÜBARİZƏ APARACAQLAR

***Bakıda atıcılıq üzrə Avropa çempionatına qatılacaq ölkələrin və snayperlərin sayı açıqlanıb.***

Azərbaycan Atıcılıq Federasiyasından bildirilib ki, çempionatda 43 ölkənin yığması 25, 50 və 300 metr məsafələrdən hədəfi nişan almada, həmçinin stendin bütün növləri üzrə yarışlarda gücünü sınayacaq.

Turnirdə 932 snayper dəqiqliyini yoxlayacaq və yeniyetmə idmançılar Olimpiya Festivalına lisenziya üçün mübarizə aparacaqlar.

Qeyd edək ki, çempionat iyulun 21-dən avqustun 4-dək Bakı Atıcılıq Mərkəzində keçiriləcək.




## KARATEÇİMİZ FƏXRİ KÜRSÜNÜN ƏN YÜKSƏK PİLLƏSİNƏ QALXIB

***Qazaxıstanın paytaxtı Astanada karatenin kyokşin növü üzrə sayca altıncı dünya çempionatı keçirilib.***



Ölkəmiz mundialda dörd idmançı ilə təmsil olunub.

Turnirdə 75 kiloqram çəki dərəcəsində mübarizə aparan Səlahət Həsənov dörd rəqibini məğlub edərək finala yüksəlib. Qızıl medal uğrunda görüşdə karateçimiz rusiyalı Maksim Smolyakova qalib gələrək fəxri kürsünün ən yüksək pilləsinə qalxıb.





## YENİYETMƏ CÜDOÇULARIMIZ AVROPA ÇEMPİONATINDA UĞURLA YARIŞIBLAR

***Litvanın Kaunas şəhərində yeniyetmələr arasında Avropa çempionatında ölkəmizin gənc cüdoçuları uğurla yarışıblar.***

Çempionatda qalib adı uğrunda 42 ölkədən 430 yeniyetmə cüdoçu mübarizə aparıb. Ölkəmizi həmin birincilikdə 16 idmançı - oğlanlar arasında 10, qızlar arasında 6 cüdoçu təmsil edib. Azərbaycan idmançıları yarışda uğurla çıxış edərək 1 qızıl, 3 gümüş və 1 bürünc medal qazanıblar.

Vüsalə Kərimova 40 kiloqram çəki dərəcəsində bütün rəqiblərinə qalib gələrək finalda ukraynalı Anastasiya Balabanı məğlub edib və fəxri kürsünün ən yüksək pilləsinə yüksəlib. Oğlanların yarışında 55 kiloqram çəki dərəcəsində Ayxan Tanrıverdiyev, 60 kiloqram çəki dərəcəsində Vüsal İbrahimoiv, 66 kiloqram çəki dərəcəsində Knyaz Mahmudlu yalnızı final görüşündə uduzaraq gümüş medala sahib olublar. Həmyerlimiz Davud Abbaslı isə 60 kiloqram çəki dərəcəsində bürünc medala layiq görülüb.

Onu da qeyd edək ki, qalib idmançılardan 3-ü "Jido Club-2012"-ni təmsil edir.

## FOTO MÜSABİQƏNİN QALİBLƏRİ MÜKAFATLANDIRILIB




***25 iyun – “Dənizçi Günü” ilə bağlı “Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi” QSC-nin rəsmi mətbu orqanı “Dəniz” qəzetinin keçirdiyi foto müsabiqənin qalibləri mükafatlandırılıb.***

Foto müsabiqəyə AXDG-nin bütün strukturlarından onlarla şəkil göndərilib. Xüsusi komissiyanın qərarı ilə qaydalara uyğun fotolar iştirakçı hüququ qazanıb. Ən yaxşı beş fotonun müəllifləri – Heybət Məmmədov (kapitanın 2-ci köməkçisi), Ruslan Abbasov (kapitanın baş köməkçisi), Əlimərdan Quliyev ( ADDA-nın prorektoru), Namiq Quliyev ( kapitanın 3-cü köməkçisi) və Vüsal Hüseyn ( XDND, İqtisadi təhlil və proqnozlaşdırma qrupunun rəhbəri) qalib adını qazanıblar.

Xüsusi hədiyyə və mükafatları qaliblərə “Dəniz” qəzetinin baş redaktoru Rasif Tahirov təqdim edib və onlara daha böyük uğurlar arzulayıb.

Xatırladaq ki, müsabiqənin keçirilməsində əsas məqsəd dənizçilərin əlavə bacarıqlarını üzə çıxarmaq və yaradıcılığa olan maraqlarını inkişaf etdirməkdir.

## KOMANDA HESABINDA MİLLİMİZ BİRİNCİ YERDƏ QƏRARLAŞIB

***Bakı İdman Sarayında Azərbaycanda Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına (Türk Şurası) üzv dövlətlərin idmançıları arasında beynəlxalq kikboksinq turniri keçirilib.***

Azərbaycan Kikboksinq Federasiyasının və Türk Şurasına üzv dövlətlərin Gənclər və İdman nazirliklərinin təşkilatçılığı ilə keçirilən yarışın məqsədi Şuraya üzv dövlətlərin peşəkar idmançıları arasında kikboksinq döyüş növünün inkişaf etdirilməsi, peşəkar kikboksçular arasında dostluq münasibətlərinin möhkəmləndirilməsi, onların idman ustalığının artırılmasıdır.

Yarışda Azərbaycanın gənclər və idman nazirinin müavini İsmayıl İsmayılov ölkəmizdə ilk dəfə keçirilən beynəlxalq kikboksinq turnirinin iştirakçılarını salamlayıb. Qeyd edib ki, kikboksinq idman növü ölkəmizdə populyar idman növlərindən biridir və ona gənclərin marağı artmaqdadır. Ən ucqar bölgələrimizdə belə olimpiya komplekslərinin olması idmanın müxtəlif növlərində kütləviliyin artmasında və inkişafında böyük əhəmiyyət kəsb edir. Ulu öndər Heydər Əliyevin idmana göstərdiyi diqqət və qayğı hazırda Prezident İlham Əliyev tərəfindən davam etdirilir. Hər il ölkəmizdə 50-dən çox mötəbər beynəlxalq idman yarışı keçirilir. Bu yarışların keçirilməsi beynəlxalq federasiyalarının ölkəmizə göstərdiyi etimad sayəsində mümkün olur. Bakıda beynəlxalq yarışın keçirilməsi türkdilli dövlətlərin idmançılarının bir araya gəlməsində və kikboksinq idman növünün inkişafında böyük əhəmiyyət kəsb edir.










Türk Şurasına üzv dövlətlərin birinci beynəlxalq yarışının Azərbaycanda keçirilməsinin sevindirici və qürurverici olduğunu bildirən Azərbaycan Kikboksinq Federasiyasının prezidenti, Milli Məclisin deputatı Adil Əliyev qeyd edib ki, turnir Şuraya üzv 4 dövlətin İdman və Gənclər nazirliklərinin imzaladığı memoranduma əsasən təşkil edilir. Yarışın yüksək səviyyədə keçirilməsi üçün bütün lazımi işlər görülüb. Ümidvaram ki, belə yarışlar gələcəkdə də davam edəcək və yarışlara yalnız dörd türkdilli dövlət deyil, digər ölkələrin idmançıları da qatılacaqlar.

Adil Əliyev deyib: “Regionun lider dövlətinə, bir çox nüfuzlu beynəlxalq tədbirlərin məkanına çevrilən Azərbaycan dünyada idman ölkəsi kimi tanınır. Ölkəmizdə idmana, idmançılara dövlət səviyyəsində qayğı göstərilir. Bu gün Azərbaycanda idman sahəsində infrastruktur yüksək səviyyədə təmin olunub. Ona görə bu gün Azərbaycanda çoxlu sayda beynəlxalq yarışlar keçirilir. Federasiyamız kikboksinq idman növünün kütləviliyini təmin etməyə çalışır. Çünki bugünkü idmançılar ordumuzun sabahkı əsgərləridir. Güclü idmançıların yetişməsi ordumuzun və dövlətimizin güclü olması deməkdir”.

Sonra kikboksinqin inkişafındakı xidmətlərinə görə federasiyanın bir sıra əməkdaşlarına idman ustası vəsiqələri, fəxri fərman və diplomlar təqdim olunub.

Türk Şurasının ümumi bayrağı rinqə gətirilib. Azərbaycanın Dövlət himni səsləndirildikdən sonra final yarışlarına start verilib.

Azərbaycan, Türkiyə, Qazaxıstan, Qırğızıstan kikboksçularının iştirak etdiyi turnirdə idmançılar 7 çəki dərəcəsi üzrə Dünya Kikboksinq Təşkilatları Assosiasiyası-WAKO-PRO versiyası üzrə K-1 üslubunda döyüşüblər.

Turnirdə hər ölkədən yeddi idmançı olmaqla, 51, 60, 63, 67, 71, 81 kiloqram və 91 kiloqramdan yuxarı çəki dərəcələrində yüksək ustalığa malik peşəkar kikboksçular mübarizə aparıblar.

Azərbaycan yığma komandasının heyətində yarışların finalına yüksələn altı idmançımız - Anar Məmmədov (51 kq), Zöhrab Əzimov (60 kq), Turan Qafarov (63,5 kq), Ruslan Musayev (67 kq), Ramal Aslanov (71 kq), Ehtiram Rzayev (81 kq) öz çəki dərəcələrində beynəlxalq turnirin qalib olublar. Komanda hesabında millimiz birinci yerdə qərarlaşıb.

Yarışın qalibləri diplom, kubok və medallarla təltif olunublar.



## ADDA TƏKRAR ALİ TƏHSİL ALMAQ ÜÇÜN SƏNƏD QƏBULU ELAN EDİR

***Azərbaycan Dövlət Dəniz Akademiyası 2017/2018-ci tədris ilində ödənişli əsaslarla təkrar ali təhsil almaq üçün sənəd qəbulu elan edir.***



Sənəd qəbulu aşağıdakı ixtisaslar üzrə aparılacaq:

- **050620 – Dəniz naviqasiyası mühəndisliyi**
- **050619 – Gəmi energetik qurğularının istismarı mühəndisliyi**
- **050626 – Elektrik mühəndisliyi**
- **050618 – Gəmiqayırma və gəmi təmiri mühəndisliyi**

Təkrar ali təhsilə müraciət Akademiyanın əsas binasında həyata keçirilir. Qeyd olunan ixtisaslara qəbul olmaq istəyənlər tələb olunan aşağıdakı sənədləri rəsmi və ya elektron qaydada təqdim edə bilərlər.

*- Rektorun adına ərizə;*
*- Ali təhsil haqqında sənədin (diplomun) notarial qaydada təsdiqlənmiş surəti (diploma əlavə ilə birlikdə);*
*- İş yerindən arayış (işlədiyi halda);*
*- 3x4 sm ölçüdə 6 ədəd fotoşəkil;*
*- Şəxsiyyət vəsiqəsinin surəti.*

Qeyd edək ki, 1993-cü ildən sonra xarici ölkələrdə ali təhsil almış şəxslər yalnız diplomları mövcud qaydada Azərbaycan Respublikası Təhsil Nazirliyi tərəfindən tanındıqdan sonra Akademiyada təkrar ali təhsil ala bilərlər.

Dövlət və özəl ali təhsil müəssisələrinin məzunları Nazirlər Kabinetinin 2010-cu il 6 sentyabr tarixli 163 nömrəli qərarı ilə təsdiq edilmiş “Əlavə təhsilin məzmunu, təşkili və əlavə təhsilin hər hansı istiqaməti üzrə təhsil almış şəxslərə müvafiq sənədin verilməsi Qaydası”na uyğun olaraq ilkin baza təhsili proqramları ilə yenidən əldə ediləcək ixtisasın baza təhsili proqramı arasındakı fərqin bir ilinə hesablanmış saatdan çox olması şərtilə təkrar ali təhsil ala bilərlər.

Sənədlərin qəbulu 2017-ci il iyulun 5-dən avqustun 1-dək aparılacaq.

**Ünvan: AZ1000, Azərbaycan Respublikası, Bakı şəhəri, Zərifə Əliyeva küç. 18**
**Tel.: (+99412) 4933644, Faks: (+99412) 4937521**
**E-mail: akademiya@acsc.az ; ramis.mammadov@acsc.az**


## AZƏRBAYCAN İDMANÇISI PEŞƏKARLAR ARASINDA DÜNYA ÇEMPİONU OLUB







***Antalyada əlbəyaxa döyüş növləri üzrə növbəti dünya çempionatı keçirilib.***

Dünya və Avropa çempionu Vüqar Əzimov Azərbaycan yığma komandasının heyətində bu çempionatda da uğurla çıxış edib.

Otuz beş ölkənin idmançılarının qatıldığı mundialda 90 kiloqramdan yuxarı çəki dərəcəsində çıxış edən Azərbaycan idmançısı Vüqar Əzimov peşəkarlar arasında K-1 versiyası üzrə qızıl medal qazanıb. Təmsilçimiz İran və Marokko rəqibləri üzərində inamlı qələbə qazanaraq fəxri kürsünün ən yüksək pilləsinə qalxıb.

Bu qələbə sayəsində Vüqar Əzimov dünya çempionu titulunu qoruya bilib. Bu il onu daha iki sınaq gözləyir. O, sentyabrda Gürcüstanda Zaqafqaziya çempionatında və oktyabrda İspaniyada keçiriləcək dünya birinciliyində mübarizə aparacaq.





## XATİRƏ TURNİRİNDƏ 2 QIZIL, 2 GÜMÜŞ VƏ 4 BÜRÜNC MEDAL QAZANIBLAR

***Rusiya Federasiyası Dağıstan Respublikasının Kaspiysk şəhərində beşqat dünya çempionu Əli Əliyevin xatirəsinə həsr olunmuş sərbəst güləş üzrə 48-ci beynəlxalq turnir keçirilib.***

Azərbaycan Güləş Federasiyasından verilən xəbərə görə, turnirdə iştirak edən sərbəst güləş yığmamızın üzvləri 2 qızıl, 2 gümüş və 4 bürünc medal qazanıblar.

Keçirdikləri bütün görüşləri qələbə ilə başa vuran Mahir Əmiraslanov (57 kq) və Aslanbek Alborov (97 kq) fəxri kürsünün ən yüksək pilləsində qərarlaşıb və turnirin qızıl medalını qazanıblar.

Yalnız final görüşündə uduzan Ağahüseyn Mustafayev (65 kq) və Aleksandr Qostiyev (86 kq) gümüş medalla kifayətləniblər.

Bürünc medalları isə yığmamıza Georgi Edişeraşvili, Pərviz İbrahimov (hər ikisi 57 kq), Qalib Əliyev (61 kq) və Məhəmməd Müslümov (65 kq) qazandırıblar.


BAŞ REDAKTOR
Rasif İman oğlu
TAHİROV

Ünvanımız:
AZ1005, Bakı şəhəri,
M. Ə. Rəsulzadə küçəsi, 5
TELEFONLARIMIZ:
Baş redaktor
(050) 670-33-76;
30-67 (daxili)

Qəzetin təsisçisi:
“Azərbaycan Xəzər Dəniz Gəmiçiliyi”
Qapalı Səhmdar Cəmiyyəti

Qəzet “Dəniz” qəzetinin kompyuter mərkəzində yığılmış, səhifələnmiş və “Azərbaycan” nəşriyyatında çap olunmuşdur

Şəhadətnamə: 275
Tiraj: 2000
Sifariş: 1989